DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 01 (318) / YANVAR 2018-Cİ İL

# PREZİDENT İLHAM ƏLİYEV QUSARDA "ŞAHDAĞ" QIŞ-YAY TURİZM KOMPLEKSİNİN NÖVBƏTİ İNKİŞAF PLANLARI İLƏ TANIŞ OLUB



*"Şahdağ" qış-yay turizm kompleksinin növbəti inkişaf planları ilə tanış olub. Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov Prezident İlham Əliyevə "Şahdağ" qış-yay turizm kompleksinin hazırkı vəziyyəti və burada bu il ikinci mərhələdə görüləcək işlər barədə məlumat verib. Qeyd edilib ki, burada dəniz səviyyəsindən 2350 metr yüksəklikdə 5 nömrəli lift meydançası inşa ediləcək və 4,2 kilometr uzunluğunda yeni eniş zolağı tikiləcək. Bu, ən uzun zolaq olmaqla yanaşı, mürəkkəbliyinə görə də qırmızı dərəcəli zolaq olacaq.*

Həmçinin dövlətimizin başçısına məlumat verilib ki, bu il kompleksin əsas meydanında əyləncə infrastrukturunun qurulması da planlaşdırılır. Burada "Boulinq", tenis və digər stolüstü oyunlar zalı, kinoteatr, musiqi mərkəzi, həmçinin suvenir mağazaları, iaşə və xidmət obyektləri inşa ediləcək.

Kompleksin yay mövsümündə də xidmət göstərməsi üçün burada göl yaradılacaq. Yay mövsümündə turistlər bu göldə həm üzəcək, həm də qayıqlarla səyahət edəcəklər. Qış mövsümündə isə bu göldən qaryaratma üçün ehtiyat mənbəyi kimi istifadə olunacaq.

İkinci mərhələdə görülməsi planlaşdırılan işlərə bu ilin yaz aylarından başlanılacaq. Bunun üçün indidən hazırlıq işləri görülür.

Dövlətimizin başçısına kompleksin yol infrastrukturu barədə də ətraflı məlumat verilib. Bildirilib ki, kompleksin ərazisindən keçən Qusar-Ləzə yolu onun kənarından inşa olunacaq. Bu da imkan verəcək ki, yuxarı kəndlərin sakinləri kompleksin ərazisinə daxil olmadan hərəkət etsinlər. Hazırda bu yolun yarısının torpaq yatağı hazırlanıb. Qalan işlərin ilin sonuna qədər tamamlanması nəzərdə tutulur. Bu yeni yoldan kompleks ərazisinə iki giriş nəzərdə tutulub. Kompleksin girişində böyük avtomobil dayanacağının da istifadəyə verilməsi planlaşdırılır.

Məlumat verilib ki, kompleksin üçüncü mərhələsi ilə bağlı layihələndirmə işləri aparılır.

Kompleksin əsas meydanının ərazisi ilə tanış olan dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verib.

* * *

Sonra Prezident İlham Əliyev "Şahdağ" qış-yay turizm kompleksində xizək sürüb.

ŞİRVANDA "AZƏRBAYCANIN DÖVLƏT-DİN MODELİ: ƏSAS İSTİQAMƏTLƏR" MÖVZUSUNDA REGİONAL KONFRANS KEÇİRİLİB




Səh. 3

"DİNİ İCMALAR VƏ GƏNCLƏR: DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ VƏ BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ"



Səh. 7

DQİDK-NIN SƏDR MÜAVİNİ: FANATİZM VƏ RADİKALİZMƏ MƏRUZ QALANLARLA İŞ APARILACAQ



Səh. 8

"MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASI XALQIMIZIN GƏLƏCƏYİ ÜÇÜN VACİBDİR"



Səh. 9

# 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 yanvar 2018-ci il.

# Qafqaz Müsəlmanları İdarəsi tərəfindən keçiriləcək bir sıra tədbirlərin maddi təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin "2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında" 2017-ci il 10 yanvar tarixli 2588 nömrəli Sərəncamının icrası ilə əlaqədar 2017-ci ildə Azərbaycanda və onun hüdudlarından kənarda silsilə tədbirlər təşkil edilmiş, o cümlədən Bakı şəhərində "2017 – İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda mötəbər beynəlxalq konfrans keçirilmişdir. İslam həmrəyliyinin möhkəmləndirilməsinə böyük töhfə verən həmin tədbirlər müsəlman aləmində özünəməxsus mövqeyə və nüfuza malik Azərbaycanın dini-mənəvi dəyərlərə dərin ehtiramının ifadəsinə çevrilmiş, həmçinin ölkəmizin tolerantlıq mühitinin və multikulturalizm təcrübəsinin təbliği baxımından böyük əhəmiyyət kəsb etmişdir.

İslam dininin sülh, əmin-amanlıq, insanpərvərlik və həmrəylik dini olması mədəniyyətlərarası və dinlərarası münasibətlərin hazırkı dövründə bu qəbildən tədbirlərin davamlı təşkilinə xüsusi aktuallıq qazandırır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və dünya ictimaiyyəti tərəfindən dərin rəğbətlə qarşılanmış "İslam Həmrəyliyi İli" çərçivəsində tədbirlərin davam etdirilməsinin zəruriliyini nəzərə alaraq, İslam ölkələri ilə mədəni əlaqələrin daha da genişləndirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. "İslam Həmrəyliyi İli"nin davamı kimi 2018-ci ildə keçiriləcək əlavə tədbirlərin maddi təminatı üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 4,0 (dörd) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 19 yanvar 2018-ci il.

# 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl - 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirmiş, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirmişlər.

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün Fövqəladə İstintaq Komissiyası yaratmış, komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görmüşdür. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılmış, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınmışdır. Yalnız 80 il sonra - 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilmiş və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir.

Ötən 20 il ərzində aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanmış, Quba şəhərində kütləvi məzarlıq aşkar olunmuşdur. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası 1918-ci il azərbaycanlıların soyqırımının yüzüncü ildönümünə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsini təmin etsin.
2. Azərbaycan Respublikasının Milli Məclisinə soyqırımın 100 illiyi ilə bağlı xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 yanvar 2018-ci il.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ ŞİRVANDA VƏTƏNDAŞLARI QƏBUL EDİB

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci il üçün şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, yanvarın 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Şirvan şəhərində bölgə vətəndaşlarını qəbul edib.

Qəbuldan öncə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Şirvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Samid Abıyev Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzində yerləşən abidəsi önünə tər gül dəstələri qoyub, Ulu Öndərin əziz və parlaq xatirəsini ehtiramla yad ediblər.



Şirvan şəhər Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Salyan, Şirvan, Neftçala, Biləsuvar və Hacıqabul rayonlarından olan sakinlərin müraciətlərinə baxıb.

Vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin dini təyinatlı kitablarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

# ŞİRVANDA "AZƏRBAYCANIN DÖVLƏT-DİN MODELİ: ƏSAS İSTİQAMƏTLƏR" MÖVZUSUNDA REGIONAL KONFRANS KEÇİRİLİB




Ölkəmizdə dini sabitliyin, o cümlədən dini dözümlülük ənənələrinin qorunub saxlanılması və radikal meyillərin qarşısının alınması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Bu fikir yanvarın 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Şirvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycanın dövlət-din modeli: əsas istiqamətlər" mövzusunda keçirilən regional konfransda səsləndirilib.

Yerli hüquq mühafizə orqanları rəhbərlərinin, YAP Şirvan şəhər təşkilatı fəallarının, dini icma sədrlərinin, din xadimlərinin, ilahiyyatçıların və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi konfransı Şirvan Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Samid Abıyev açıb. O, ölkəmizdə tolerantlıq və multikulturalizm siyasətinin bugünkü inkişaf mərhələsinə gəlib çatmasında Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin yorulmaz fəaliyyətindən söz açıb.

Şirvandakı sabit dini durum barədə məlumat verən S.Abıyev dini maarifləndirmə tədbirlərinin, dini radikalizmin fəsadlarından bəhs edən sənədli filmlərin nümayişinin əhəmiyyətindən də danışıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bu ilin Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Xalq Cümhuriyyət İli" elan edilməsinin önəminə toxunub, müstəqil Azərbaycan Respublikasının 1918-ci ildə yaradılmış Xalq Cümhuriyyətinin siyasi varisi olduğunu bildirib. Dövlət Komitəsinin sədri qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən atılan bu mühüm addım, eyni zamanda Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətlərinin tarixinə nəzər salmağımıza səbəb olur. Bugünkü nümunəvi dövlət-din modelimiz bizim tariximizə, ənənələrimizə əsaslanır. Sovetlər dövründə dinə qarşı təzyiqlər edilsə də, xalqımız dini-mənəvi dəyərlərə sadiqliyini qoruyub saxlaya bilib.

Mübariz Qurbanlı vurğulayıb ki, müstəqilliyimizin bərpasından sonra dövlət-din münasibətləri, ayrı-ayrı etnoslar arasında əlaqələr, hər bir xalqın mədəni-mənəvi dəyərlərinin öyrənilməsi və təbliği yeni keyfiyyət mərhələsinə qaldırılıb. Nümunəvi siyasətin bu gün yeni formada özünü göstərdiyini deyən Komitə sədri Prezidentimizin dinə qayğısının təzahürü olaraq, 2016-cı ili ölkəmizdə "Multikulturalizm İli", 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etdiyini, ötən ilin oktyabr ayında Mənəvi Dəyərlərin Təbliği Fondunun təsis edilməsi haqqında Fərman imzaladığını diqqətə çatdırıb. Bildirib ki, Fondun nizamnaməsində milli mənəvi dəyərlərimizin təbliği əsas istiqamət təşkil edir.

Dövlət Komitəsinin sədri müasir dövrdə bir sıra siyasi mərkəz və dairələrin, eləcə də bəzi ölkələrin münasibətlərində ikili standartların üstünlük təşkil etdiyini diqqətə çatdırıb, buna görə də humanist dəyərlərin arxa plana keçməsinin heç kəsə sirr olmadığını, din adı altında müxtəlif zərərli qrupların fəaliyyət göstərdiyini bildirib. M.Qurbanlı həmin qrupların dinin əsas fundamental dəyərlərindən kənara çıxaraq, zərərli təşviqatlar aparmaqla insanları din adı altında başqa məqsədlərə yönəltdiyini, onları silahlı münaqişələrə cəlb etdiyini, digər mədəniyyətlərə və dinlərə qarşı qoyduğunu vurğulayıb. Qeyd edib ki, belə bir məqamda milli mənəvi və islami dəyərlərimizin qorunub-saxlanılmasına və təşviqinə böyük ehtiyac var.

Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Hüsni Həsənov çıxışında dinə dövlət qayğısından bəhs edib. O, müstəqillik dövründə dini ibadətgahların inşa və təmir edilərək yenidən xalqın ixtiyarına verildiyini bildirib. H.Həsənov din xadimlərinin fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını, dövlət tərəfindən mütəmadi olaraq dini sahəyə maliyyə vəsaitinin ayrıldığını deyib.

*Konfransın ikinci hissəsi "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam edib.*

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Şirvan Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini – dini qurumlarla işin təşkilatçısı Adəm Hüseynov, DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov, Şirvan Gənclər Evinin direktoru Əfqan Həsənov çıxış ediblər. Çıxışlarda dini radikalizmə qarşı mübarizə, cəmiyyətin, xüsusən gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, din adı altında milli və dövlət maraqlarımıza zidd, milli mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılmasının qarşısının alınmasında dini maarifləndirmənin rolu və önəmi kimi məsələlərə toxunulub.



# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNDƏ 20 YANVAR - ÜMUMXALQ HÜZN GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR

Yanvarın 19-da DQİDK-nın 20 Yanvar - Ümumxalq Hüzn Gününün 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbirdə çıxış edən Komitə sədri Mübariz Qurbanlı 20 Yanvar hadisələrinin xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda mübarizə tarixinin şərəfli səhifəsi olduğunu bildirib. Xalq öz canından keçməsi hesabına özünün azadlığı, müstəqilliyi uğrunda mübarizə apardığını, qəhrəmanlıq nümayiş etdirdiyini qeyd edib.

20 Yanvar faciəsi zamanı həlak olan dinc sakinlərin içərisində azərbaycanlılarla yanaşı, digər xalqların və dinlərin nümayəndələrinin də olduğunu diqqətə çatdıran M.Qurbanlı bununla Azərbaycanın Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdiyini vurğulayıb.

Komitə sədri bu qanlı hadisələrə ilk dəfə Ulu Öndər Heydər Əliyevin hüquqi-siyasi qiymət verdiyini deyib. Bildirib ki, faciənin ertəsi günü Ümummilli Lider Heydər Əliyev Moskvada Azərbaycan nümayəndəliyinə gələrək təcavüzə kəskin etirazını bildirib, faciəni törədənləri sərt tənqid edib. Xalqın təkidi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra da 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atılıb.

M.Qurbanlı Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasətin təməl prinsiplərindən birinin Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması olduğunu bildirib. O, dövlətin şəhid ailələrinə olan xüsusi diqqətindən bəhs edərək şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, şəhid ailələrinə göstərilən dövlət qayğısı barədə ətraflı məlumat verib.



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov xalqın tarixinin mühüm səhifəsi olan bu faciənin milli azadlıq mübarizəmizdə mühüm rol oynadığını bildirib. E.Nəcəfov vurğulayıb ki, 20 Yanvar qətliamı xalqın əzmini qıra bilməyib və Azərbaycanın müstəqillik qazanmasına təkan verib. O, Ümummilli Lider Heydər Əliyevin xidmətləri sayəsində bu hadisə haqqında beynəlxalq ictimaiyyətə məlumat verildiyini bildirib. Ulu Öndər 21 yanvar tarixində keçirdiyi mətbuat konfransında bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun törəmə səbəblərini də açıqladığını, təşkilatçılarının, günahkarlarının adını bütün dünyaya bəyan etdiyini diqqətə çatdırıb.

Anım tədbirində Qafqaz Müsəlmanlari İdarəsinin sədr müavini Fuad Nurullayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete, Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Avropa Yəhudiləri Bakı dini icmasının sədri Aleksandr Şarovski çıxış edərək 20 Yanvar faciəsi ilə bağlı xatirələrini bölüşüb, bu günün təkcə matəm günü yox, həm də qəhrəmanlıq salnaməsi kimi tariximizə həkk olunduğunu bildiriblər.

# DÖVLƏT KOMİTƏSİNDƏ 2017-Cİ İLİN YEKUNLARINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏ KEÇİRİLİB

*Yanvarın 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 2017-ci ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib.*

Dövlət Komitəsinin Mərkəzi Aparatı və bölgə şöbə müdirləri iştirak etdiyi müşavirədə DQİDK-nın sədri Mübariz Qurbanlı çıxış edərək Prezident İlham Əliyevin iştirakı ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasına diqqəti cəlb edib. O bildirib ki, dövlət başçısı nitqində ötən il Azərbaycanda keçirilən IV İslam Həmrəyliyi Oyunlarının İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində atılan önəmli addım adlandırıb və 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsinin İslam aləmində çox böyük dəstəyə və rəğbətə səbəb olduğunu vurğulayıb.



M.Qurbanlı "İslam Həmrəyliyi İli" nin İslamın əsl mahiyyətini özünə qaytarmaq, onu sülh və sabitlik ideyalarının tərənnümçüsünə çevirmək baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirib. Bu istiqamətdə həm ölkə daxilində, həm də ölkə xaricində həyata keçirilən çoxsaylı tədbirlərdə Azərbay-canın İslam dünyasında gedən proseslərdə öz mövqeyini nümayiş etdirdiyini, İslam həmrəyliyi, onu zəruri edən şərtlər, bütövlükdə dünyada sülh, əmin-amanlıq və əməkdaşlığa müsbət təsir göstərdiyini qeyd edib.

Hesabat dövründə dini sahədə bir sıra məsələlərin müsbət həllinə nail olduğunu bildirən Dövlət Komitəsinin sədri ötən il Prezident İlham Əliyevin Fərmanı ilə DQİDK-nın tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılmasına da diqqət çəkib. Fondun yaradılması haqqında müvafiq Fərmanın imzalamasının, milli-mənəvi dəyərlərimizə və mütərəqqi tarixi ənənələrimizə hər zaman yüksək qiymət və dəstək göstərən dövlət başçımızın, eyni zamanda Dövlət Komitəsinə olan yüksək etimadının göstəricisi olduğunu deyib.

M.Qurbanlı dövlət başçısının 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Sərəncam imzaladığını qeyd edərək bu il çərçivəsində Dövlət Komitəsinin Tədbirlər Planına uyğun olaraq görüləcək işlərdən danışıb. Bildirib ki, 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi çox böyük tarixi hadisədir və cənab Prezidentin Azərbaycanın dövlətçilik tarixinə verdiyi yüksək dəyərdir.

Müşavirədə gündəliyə uyğun olaraq DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarovun illik hesabatı dinlənilib. Ə.Zülfüqarov məruzəsinə Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2017-ci il tarixli Sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsinə dair Tədbirlər Planına uyğun olaraq, Dövlət Komitəsinin həyata keçirdiyi tədbirlər barədə məlumat verməklə başlayıb.

O bildirib ki, Dövlət Komitəsi ayrıca və müxtəlif təşkilatlarla, xüsusilə Qafqaz Müsəlmanları İdarəsi ilə birgə 200-dən artıq ölkə və beynəlxalq əhəmiyyətli tədbirə təşkilatçılıq edib.

Hesabat dövründə İslam həmrəyliyinin mahiyyətini özündə ehtiva edən 20-ə yaxın mövzuda 240-dan artıq tədbir təşkil olunub.

"İslam həmrəyliyi: müasir çağırışlar və dini maariflədirmə" mövzusunda 25 regional konfrans, İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda 27 seminar-müşavirə baş tutub.

Habelə 4-6 may tarixlərində Bakıda keçirilmiş IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində DQİDK-nın təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanda Dinlərarası Harmoniya" adlı panel və "Azərbaycan-İslam Mədəniyyətinin İncisi" adlı foto-sərgi keçirilib.

Şöbə müdiri bildirib ki, Dövlət Komitəsi hesabat dövründə ölkədə vicdan azadlığının təmin edilməsi, tolerantlıq, multikulturalizm mühitinin qorunub saxlanılması, dinlərarası və məzhəblərarası dialoq üçün əlverişli zəmin yaradılması, habelə həmrəylik prinsiplərinin təbliği istiqamətində fəaliyyətini davam etdirib.

Ə.Zülfüqarov hesabat dövründə dini təhsil sahəsində müsbət irəliləyişə nail olunduğunu, 10 İslam Kollecinin Dövlət Komitəsində qeydiyyata alındığını, hazırda fəaliyyət göstərən Quran kurslarının qanunauyğun yaradılması və fəaliyyət göstərməsini araşdırmaq üçün müvafiq komissiya yaradıldığını, eləcə də Qafqaz Müsəlmanları İdarəsi tərəfindən Quran kursları üçün Tədris Planı hazırlanaraq təsdiq edildiyini bildirib.

2017-ci ildə dini qurumların dövlət qeydiyyatına alınması prosesinin davam etdirildiyini deyən şöbə müdiri onların ümumi sayının 793-ə çatdığını qeyd edib.

DQİDK-nın şöbə müdiri ölkədə dini ayrı-seçkilik və qarşıdurma meyillərinin yayılmasına rəvac verilməməsi, dini dözümlülük mühitinə mənfi təsir göstərə biləcək ədavəti, nifrəti, ekstremizmi və radikallığı təbliğ edən dini təyinatlı ədəbiyyatın ölkəyə gətirilməsi və nəşrinin qarşısının alınması məqsədilə müvafiq qabaqlayıcı işlər görüldüyünü bildirib. Qeyd edib ki, hesabat dövrü ərzində ümumilikdə 1540 adda dini məzmunlu ədəbiyyatın idxal edilməsi məsələsinə baxılaraq, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 63 adda kitabın ölkəyə idxalının qarşısı alınıb. Nəşr olunmaq məqsədilə ekspertizaya təqdim edilmiş 313 adda dini ədəbiyyatın 4-nün çapı məqsədəuyğun sayılmayıb. Hüquq-mühafizə orqanları tərəfindən ekspertiza məqsədilə təqdim edilmiş 2106 adda dini təyinatlı ədəbiyyata baxılaraq, onlardan 99-nun zərərli, yaxud müvafiq razılıq alınmadan idxal və istehsal olunduğu müəyyən edilib.

O, 2017-ci ildə Dövlət Komitəsinin milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural ənənələrimizin təşviqi, ölkədəki dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, vətəndaşlarımızın, xüsusilə gənclərin zərərli dini cərəyanların təsiri altına düşməsinin, o cümlədən din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması məqsədilə müvafiq dövlət qurumları ilə birgə hazırlanan Tədbirlər Planının həyata keçirilməsi, dini maarifləndirmə sahəsində tədbirlərin təşkil edilməsi istiqamətində fəaliyyətini davam etdirdiyini, aidiyyəti qurumlarla birlikdə ümumilikdə 600-ə yaxın tədbir həyata keçirildiyini deyib. Bildirib ki, maarifləndirmə işinin təşkili üçün dini icmaların təqdim etdiyi 149 layihə icra olunub, bundan əlavə, ötən il Dövlət Komitəsi tərəfindən maarifləndirici xarakterli 80-dən çox dini təyinatlı çap məhsulları nəşr edilib.

Ə.Zülfüqarov dini fanatizm, radikalizm və ekstremizm meyillərinə qarşı preventiv mahiyyət daşıyan, eləcə də gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə töhfə verə biləcək "Şəhadət" filminin ölkənin bütün rayon və bölgələrində geniş auditoriyaya təqdim edildiyini vurğulayıb. Eləcə də "Vəhdət" və "Üfüqdəki gələcək" adlı sənədli filmlərin çəkilişinin yekunlaşmaq üzrə olduğunu deyib.

Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov dini təhlükəsizlik məqamlarına toxunub. S.Heydərov dünyada dini zəmində qlobal təhlükəsizlik problemlərinin getdikcə artdığını nəzərə alaraq, bəzi xarici dövlətlərin təsiri altında olan siyasi və dini dairələrin din pərdəsi altında ölkəmizin dini mühitinə müdaxilə cəhdlərinin qarşısının alınması, ən əsası, dindar kontingentin İslam dünyasında gedən mürəkkəb və təhlükəli proseslərdən sığortalanması, o cümlədən radikal dini cərəyanlarla mübarizədə effektivliyin təmin olunması üçün aidiyyəti hüquq-mühafizə, icra və digər dövlət qurumları ilə birgə aparılan kompleks işlərin davam etdirilməsinin zəruriliyini vurğulayıb.

Sonda Dövlət Komitəsinin 2018-ci il üçün fəaliyyət planı, qarşıya qoyulan məqsədlər, görüləcək işlər, problem və perspektivlər geniş müzakirə edilib.

# MÜBARİZ QURBANLI: MƏZARLIQLAR VƏ DƏFN MƏRASİMİNƏ DAİR QAYDALAR HAZIRDIR

"Azərbaycanda məzarlıqlarla əlaqədar qərar layihəsi olmayacaq, bununla bağlı Nazirlər Kabineti məzarlıqlar və dəfn mərasimini tənzimləyən qaydaları təsdiq edəcək. Qaydalar artıq hazırdır, təsdiq olunma ərəfəsindədir".

Bu barədə APA.az saytına açıqlama verən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, sözügedən qaydaları özündə ehtiva edən sənəd artıq bütün müzakirələrdən keçib: "Nazirlər Kabinetində buna dəfələrlə baxılıb. Sadəcə, bu, çox həssas mövzudur və hərtərəfli araşdırılmalıdır. Bununla bağlı Qafqaz Müsəlmanları İdarəsinin də rəyi var, Dövlət Komitəsi də qaydalara baxıb.

Bu məsələ Nazirlər Kabinetində ekspertlərin, hüquqşünasların, sosioloqların, o cümlədən ilahiyyatçı alimlərin iştirakı ilə müzakirə olunub. Artıq bütün mərhələlərdən keçib. Hesab edirəm ki, qaydalar yaxın vaxtlarda təsdiq olunacaq. Bununla bağlı heç bir sual, hər hansı əngəl yoxdur. Sadəcə, sənəd müxtəlif instansiyalardan keçməli və müzakirə olunmalıydı. Bu, olduqca həssas məsələ olduğu üçün tələskənliyə yol verilmir. Nazirlər Kabineti prosedura uyğun olaraq, qaydaları yaxın vaxtlarda təsdiq edəcək".

# BAKIDA MİLAD BAYRAMI MÜNASİBƏTİLƏ QƏBUL TƏŞKİL EDİLİB

Yanvarın 9-da Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası Milad bayramı münasibətilə qəbul təşkil edib.

Qəbulda çıxış edən Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein Milad bayramı münasibətilə təbrikləri-ni çatdırıb. Azərbaycanda bu bayramın ənənəyə çevrildiyini və yüksək səviyyədə qeyd edildiyini deyən A.İşein bildirib ki, 2017-ci il həm bütün dünya, həm də Azərbaycan üçün bir çox hadisələrlə yadda qalıb. O, ölkəmizdə elan olunan "İslam Həmrəyliyi İli"nə toxunaraq vurğulayıb ki, keçirilən tədbirlər nəticəsində sivilizasiyalararası, mədəniyyətlərarası, dinlərarası dialoq axtarışında olan insanlar anladılar ki, Azərbaycan bununla əlaqədar bəşəriyyət qarşısında duran sualların cavabını tapa bilib.



A.İşein milad bayramının sevinc, barışıq bayramı olduğunu vurğulayaraq qeyd edib ki, hər il olduğu kimi, bu il də Prezident İlham Əliyevin ölkəmizdə yaşayan xristianları təbrik edib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bundan sonra da sabitlik, tərəqqi, firavanlıq şəraitində inkişaf edəcəyinə əminliyini ifadə edib.

Qəbulda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Prezident İlham Əliyevin Milad bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasına təbrik məktubunu oxuyub.

Təbrik məktubunda Azərbaycanda tarixən sivilizasiyalararası və mədəniyyətlərarası dialoq mühitinin mövcudluğunun, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılmasının çoxmillətli və çoxkonfessiyalı cəmiyyətimizdə ümummilli mənəvi-ictimai dəyərlərin, zəngin multikulturalizm və dözümlülük ənənələrinin formalaşmasında, vətəndaş həmrəyliyinin bərqərar edilməsində müstəsna rol oynadığı bildirilib: "Biz bu tarixi nailiyyəti milli dövlətçiliyimizin mühüm uğuru kimi qiymətləndirir, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarının hüquq və azadlıqlarının, eyni zamanda vicdan və dini etiqad azadlığının təminatını dövlət siyasətinin prioritet istiqamətlərindən biri hesab edirik". Prezident İlham Əliyev vurğulayıb ki, ölkəmizin bütün milli azlıqları kimi, pravoslav xristian icması da millətlərarası və dinlərarası münasibətlərə öz layiqli töhfələrini verməklə, Azərbaycanda gedən böyük inkişaf prosesində və vətəndaş cəmiyyəti quruculuğunda yaxından iştirak edir.

Toplantıda Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə çıxış edərək Milad bayramı münasibətilə təbriklərini çatdırıb. O bildirib ki, Azərbaycanda müsəlmanlar, pravoslavlar, katoliklər, yəhudilər və digər din mənsubları dostluq, qardaşlıq şəraitində yaşayırlar.

Multikulturalizmin və tolerantlığın xalqımızın həyat tərzinə çevrildiyini söyləyən Allahşükür Paşazadə Azərbaycanın dini həmrəylik mühitinin və sivilizasiyalararası dialoqun təşəkkülündə, İslam mədəniyyətinin dünyada yayılmasında mühüm rol oynadığını qeyd edib. O, 2017-ci ilin Azərbaycanda Prezident İlham Əliyev tərəfindən "İslam Həmrəyliyi İli" elan edilməsinin əhəmiyyətini vurğulayıb. Allahşükür Paşazadə multikulturalizm və dini həmrəyliyin bünövrəsinin Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, onun siyasətini Prezident İlham Əliyevin uğurla davam etdirdiyini söyləyib. O, həmçinin bu yaxınlarda Moskvanın və bütün Rusiyanın patriarxı Kirillin Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanı Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə və Həştərxan şəhərinin abadlaşdırılmasına qayğısına görə II dərəcəli Müqəddəs Məleksima Knyaginya Olqa ordeni ilə təltif etdiyini xatırladıb.

Qəbulda rəsmi şəxslər, deputatlar, dini konfessiyaların rəhbərləri, diplomatlar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

# MÜBARİZ QURBANLI "THE JERUSALEM POST" QƏZETİNƏ MÜSAHİBƏ VERİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının İsrailin nüfuzlu "The Jerusalem Post" qəzetində "İslam Həmrəyliyi İli"nin yekunlarına dair müsahibəsi dərc edilib.

Müsahibədə beynəlxalq terrorizmin, separatizmin, dini ekstremizmin, milli, etnik və dini münaqişələrin baş verdiyi müasir dövrdə dünyada təhlükəsizliyi, insanların sülh içində yaşamasını təmin etmək məqsədilə tolerant və multikultural dəyərlərin təbliğ edilməsi, dinlər, mədəniyyətlər, siyasi sistemlər arasında əməkdaşlığın qurulması istiqamətində Azərbaycan Respublikasında görülən işlərdən bəhs olunub. Qeyd edilib ki, 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilməsi böyük ictimai-siyasi əhəmiyyət daşıyır və o, təkcə müsəlman dünyasına deyil, eyni zamanda bəşəriyyət üçün həmrəylik çağırışıdır.

Dövlət Komitəsinin sədri "İslam Həmrəyliyi İli" çərçivəsində DQİDK tərəfindən görülən çoxşaxəli işlər haqqında danışıb. Ötən il Bakıda "2017-İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda 40-a yaxın ölkədən 150-dək nümayəndənin, o cümlədən tanınmış dövlət, din və elm xadimlərinin, beynəlxalq təşkilatların rəhbərlərinin və təmsilçilərinin, müxtəlif ölkələrin dövlət başçılarının xüsusi nümayəndələrinin, dini konfessiya rəhbərlərinin, hökumət və parlament üzvlərinin, diplomatik korpus və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilmiş beynəlxalq konfransın nəticələrindən bəhs edən müsahib paytaxtımızın son illər bu sahədə beyin mərkəzinə çevrildiyini vurğulayıb.

Həmçinin M.Qurbanlı bildirib ki, ötən il Dövlət Komitəsi tərəfindən maarifləndirici xarakterli 80 müxtəlif adda dini təyinatlı ədəbiyyat nəşr edilib, dini fanatizm, radikalizm və ekstremizm meyillərinə qarşı mübarizə mahiyyəti daşıyan "Şəhadət" filmi geniş auditoriyaya nümayiş etdirilib. 2018-ci ildə isə "Üfüqdəki gələcək" və "Vəhdət" adlı sənədli filmlər hazırlanaraq təqdim olunacaqdır.

Prezident İlham Əliyevin Fərmanı ilə DQİDK-nın tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması milli-mənəvi dəyərlərimizin və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində atılan böyük addım olduğunu diqqətə çatdıran M. Qurbanlı Fondun fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib. Qeyd edib ki, İslami dəyərlərin ən yüksək səviyyədə olduğu ölkəmizdə yüzilliklərdən bəri müxtəlif dinlərin və millətlərin nümayəndələrinin sülh, qarşılıqlı hörmət və həmrəylik şəraitində yaşaması, dinindən, məzhəbindən, dilindən, irqi mənsubiyyətindən asılı olmayaraq burada məskunlaşmış insanların öz milli-mənəvi dəyərlərini, dini ayinlərini, adətlərini, bayramlarını sərbəst şəkildə icra etməsi, fərqli mədəniyyətlər arasında heç bir münaqişə baş verməməsi və s. bu kimi faktlar mədəni və dini müxtəlifliyin Azərbaycanın xəzinəsi olduğunu fəxrlə deməyimiz üçün əyani sübutlardır.

# GƏNCLƏR ARASINDA MİLLİ-DİNİ DÖZÜMLÜLÜYÜN TƏBLİĞİNƏ DAİR PROQRAMIN İCRASINA START VERİLİB




"ASAN Könüllüləri" Təşkilatı və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Gənclər Arasında Milli-Dini Dözümlülük, Sülhsevərlik və Humanizm Dəyərlərinin Təbliğ Edilməsi" Proqramına start verilib.

Proqramın açılış tədbiri zamanı giriş nitqi ilə çıxış edən "ASAN Könüllüləri" Təşkilatının sədri Bəxtiyar İslamov Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının 2.1.3-cü bəndinə müvafiq olaraq Bakı və region gəncləri arasında humanizm və sülhsevərlik dəyərlərinin təbliğ olunmasına töfhə verildiyini və bu istiqamətdə müxtəlif addımların atıldığını qeyd edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışı zamanı milli-dini dözümlülük, sülhsevərlik və humanizm dəyərlərinin önəmindən, Azərbaycanda dini mədəniyyət və buna sübut olaraq müxtəlif dinlər üzrə ibadət yerlərinin mövcudluğundan bəhs edib. M.Qurbanlı bildirib ki, ölkə başçısının bütün sahələrdə olduğu kimi bu sahəyə də göstərdiyi qayğı nəticəsində ölkəmizdə din dəyərləri, dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Komitə sədri ASAN könüllüləri simasında bütün gənclərin dini tolerantlığın təbliğində böyük rol oynadığını, Azərbaycan gənclərinin sülhsevər olduğunu vurğulayıb.

Daha sonra çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ülvi Mehdiyev Azərbaycan gənclərinin mübarizliyindən, təşəbbüskarlığından və sülhsevərliyindən danışıb. Ülvi Mehdiyev diqqətə çatdırıb ki, müharibə dövründə Azərbaycanın müstəqilliyinin itirilməsinin qarşısının alınmasında məhz vətənpərvər gənclərin xüsusi rolu var.

Tədbirdə paytaxt və regionları əhatə edəcək proqram çərçivəsində "Fotoqrafların gözü ilə dini tolerantlıq" mövzusunda fotosərgidə şəkilləri nümayiş olunan gənc fotoqraflara sertifikatlar təqdim olunub.

Sonda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən hazırlanmış "Şəhadət" filmi nümayiş olunub.

# DÖVLƏT KOMİTƏSİNDƏ GÖRÜŞLƏR



Yanvarın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Bolqarıstanın Azərbaycandakı müvəqqəti işlər vəkili Yanko Yanakiyev ilə görüşüb.

Görüş zamanı faydalı əməkdaşlığın qurulması üçün perspektivlər və maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

Azərbaycan-Bolqarıstan əlaqələrinin uğurla inkişaf etdiyini bildirən Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qonağa Azərbaycandakı nümunəvi dövlət-din münasibətləri, Dövlət Komitəsinin fəaliyyət istiqamətləri, dini qurumlar arasındakı həmrəylik, dinə dövlət qayğısı barədə danışıb.

Dövlət Komitəsinin sədri ölkədə mövcud dini konfessiyaların dəstəklənməsi və onların maddi durumunun yaxşılaşdırılması məqsədilə Prezidentimiz cənab İlham Əliyev tərəfindən müsəlman və qeyri-müsəlman dini icmalara vəsaitlərin ayrıldığını qeyd edib.

Söhbət zamanı qonağı Azərbaycan həqiqətləri barədə də məlumatlandıran Dövlət Komitəsinin sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən yaxın zamanda ədalətli həll olunmasının vacibliyini vurğulayıb. O, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərində dini-mədəni abidələri dağıtdıqlarını diqqətə çatdırıb.

Qəbula görə səmimi minnətdarlığını bildirən müvəqqəti işlər vəkili Yanko Yanakiyev tolerantlığın Azərbaycanda çox möhkəm təməl sütunları, zəngin ənənələri, dərin tarixi və mədəni köklərinin olduğunu vurğulayıb. Azərbaycanda qədimdən müxtəlif konfessiya və mədəniyyət nümayəndələri arasında nadir qarşılıqlı münasibətlər sisteminin qurulmasının digər ölkələrə nümunə olduğunu bildirib. Bolqarıstanın Azərbaycanın din siyasətinin və dini radikalizmlə mübarizə sahəsində təcrübəsinin dərindən öyrənilməsində maraqlı olduğunu deyib.

Yanvarın 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Portuqaliya parlamentinin deputatı, Parlamentlərarası İttifaqın "12 Plyus Qrupu"nun Prezidenti Duarte Paçeko ilə görüşüb.

Görüş zamanı DQİDK sədri qonağa Azərbaycanda mövcud olan dini dözümlülük, multikulturalizm ənənələri barədə məlumat verib. O bildirib ki, ölkəmizdə hazırki dövlət-din münasibətləri əsrlərboyu Azərbaycan xalqının formalaşdırdığı qarşılıqlı hörmət və dözümlülük ənənələrinin qoruyub saxlanılmasına və inkişaf etdirilməsinə yönəlib.

Dövlət Komitəsinin fəaliyyəti barədə də portuqaliyalı deputata məlumat verən Mübariz Qurbanlı ölkəmizdə



dini radikalizmə qarşı aparılan mübarizənin artıq nəticə verdiyini qeyd edib.

Söhbət zamanı Dağlıq Qarabağ münaqişəsinə toxunan Dövlət Komitəsinin sədri Ermənistanın Azərbaycan torpaqlarını zəbt etdiyini, işğal altında olan ərazilərimizdə Azərbaycan xalqının maddi-mədəni və mənəvi irsinə ağır zərbə vurulduğunu diqqətə çatdırıb.

Portuqaliya parlamentinin deputatı Duarte Paçeko Azərbaycandakı tolerantlıq və birgəyaşayış ənənələrindən, həmçinin bu istiqamətdə yürüdülən dövlət siyasətindən mütəəssir olduğunu bildirib. Eyni zamanda, Azərbaycan və Portuqaliyanın bu sahədə birgə əməkdaşlıq üçün yaxşı perspektivlərinin olduğu qeyd edilib.

***

Görüşlərin sonunda qonaqlara Azərbaycanın dini tolerantlıq mühitindən və ermənilər tərəfindən vandalizmə məruz qalmış abidələrindən bəhs edən kitablar hədiyyə edilib.

# DQİDK YANINDA YARADILAN İCTİMAİ ŞURAYA SEÇKİLƏR KEÇİRİLİB

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 816-IVQ nömrəli Qanununa, Qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 16 yanvar tarixli 89 nömrəli Fərmanına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"yə uyğun olaraq 29 yanvar 2018-ci il tarixində Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuraya seçkilər keçirilib.



Seçki prosesinin sonunda seçki qutusu açılıb və səslər Seçki Komissiyasının üzvlərinin iştirakı ilə müşahidəçilərin nəzarəti altında hesablanıb.

Səsvermənin nəticələrinə əsasən aşağıda adları qeyd edilmiş QHT təmsilçiləri Komitə yanında İctimai Şuranın üzvü seçiliblər:

Siyahını təqdim edirik:

1.Nəriman Qasım oğlu Qasımzadə – Din və Demokratiya Mərkəzi İctimai Birliyinin sədri;

2.Əliməmməd Mali oğlu Nuriyev – Konstitusiya Araşdırmalar Fondunun rəhbəri;

3.Solmaz Baba qızı Əmirova – "Aydınlığa Doğru" İctimai Birliyinin sədri;

4.Sevinc Yadulla qızı Əzimbəyli – Yeni Üfüq İctimai Birliyinin sədri;

5.Rəna Rza qızı Mirzəzadə – Gender və İnsan Hüquqi Araşdırmalar Birliyinin sədri;

6.Asim Nazim oğlu Vəliyev – Gənclərin Töhfəsi İctimai Birliyinin sədri;

7.Fəxrəddin Nazim oğlu Həsənzadə – Gənclər üçün Təhsil Mərkəzi İctimai Birliyinin sədri.

Qeyd edək ki, İctimai Şura Dövlət Komitəsinin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, Komitə ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili, onun fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması, dövlət siyasətinin formalaşması və qərarların qəbulu zamanı ictimai rəyin və vətəndaşların qanuni maraqlarının nəzərə alınması, əsas insan və vətəndaş hüquqlarının müdafiəsi kimi məqsədlərin həyata keçirilməsi istiqamətlərində fəaliyyət göstərəcək.

# AZƏRBAYCAN İLƏ KANADA ARASINDA DİNİ SAHƏDƏ ƏMƏKDAŞLIĞIN İNKİŞAFINA DAİR MƏSƏLƏLƏR MÜZAKİRƏ EDİLİB



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Kanadanın Ankaradakı səfirliyinin birinci katibi Andrea Soner ilə görüşüb.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı qonağa ölkəmizdəki nümunəvi tolerantlıq mühiti, ayrı-ayrı dini konfessiya nümayəndələri arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətləri barədə məlumat verib. O, Prezident İlham Əliyevin dövlət-din münasibətlərinə xüsusi həssaslıqla yanaşdığını qeyd edib, dövlətin dinə qayğısı barədə danışıb. 28-i qeyri-müsəlman olmaqla 793 dini icmanın dövlət qeydiyyatından keçdiyini, dini icmalara cənab Prezidentimiz tərəfindən mütəmadi olaraq maliyyə yardımı ayrıldığını diqqətə çatdırıb.

Ölkəmizdə tolerant, multikultural mühitin hökm sürdüyünü deyən Kanadanın Ankaradakı səfirliyinin birinci katibi Andrea Soner dinlərarası dialoqun inkişaf etdirilməsinin ölkəmizdə prioritet istiqamət olduğunu dilə gətirib. Kanada da olduğu kimi Azərbaycanda da tolerantlıq mühitinin, dini irsə ehtiramın, multikultural həyat tərzinin həqiqətən böyük dəyər kəsb etdiyini bildirib.

Görüşdə iki ölkə arasında dini sahədə əməkdaşlığın inkişafına dair məsələlər müzakirə edilib, eyni zamanda ölkəmizin nümunəvi dövlət-din modeli, dini radikalizmə qarşı mübarizəyə dair təcrübəsi barədə danışıqlar aparılıb.

# XIZIDA "DİNİ İCMALAR VƏ GƏNCLƏR: DİNİ RADİKALİZMLƏ MÜBARİZƏ VƏ BİRGƏ FƏALİYYƏTİN TƏŞKİLİ" MÖVZUSUNDA SEMİNAR-MÜŞAVİRƏ BAŞ TUTUB





Yanvarın 31-də Xızı Rayon İcra Hakimiyyəti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə "Dini icmalar və gənclər: dini radikalizmlə mübarizə və birgə fəaliyyətin təşkili" mövzusunda seminar-müşavirə keçirilib.

Xızı rayon Heydər Əliyev Mərkəzində keçirilən seminar-müşavirədə yerli icra hakimiyyəti və DQİDK-nın nümayəndələri, dini icma rəhbərləri, rayon ziyalıları, eləcə də gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov Azərbaycanda nümunəvi dövlət-din münasibətlərinin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, bu gün isə Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. X.Aslanov, eyni zamanda, milli-mənəvi dəyərlərimizin zənginliyindən, qədim zamanlardan bəri ölkəmizdə formalaşan multikultural ənənələrdən söz açıb. Qeyd edib ki, vətəndaşlarımızın milli-mənəvi dəyərlərimizin, tolerantlıq ənənələrinin qorunub - saxlanılmasında, həmçinin, radikalizmə qarşı mübarizədə fəal iştirakı zəruridir. Bu səbəbdən belə seminar-müşavirələrin, dəyirmi masaların keçirilməsi gənclərin maarifləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxışında Ulu Öndərimizin uzaqgörən siyasətinin dini dəyərlərimizin dirçəlməsinə yönəldiyini, milli-mənəvi dəyərlərimizə hər zaman hörmət və qayğı ilə yanaşdığını vurğulayıb. Bildirib ki, bu nümunəvi siyasətin dövlət başçımız tərəfindən uğurla davam etdirilməsinin, dövlət-din münasibətlərinin sağlam təməllər üzərində qurulmasının nəticəsi olaraq bu gün ölkəmizdə dini baxımdan stabillik mövcuddur.

Dövlət Komitəsi sədrinin birinci müavini diqqətə çatdırıb ki, milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılması, dini dözümlülük, tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsi, o cümlədən dini radikalizmin, ekstremizmin qarşısının alınması sahəsində maarifləndirmənin alternativi yoxdur. O, maarifləndirmə tədbirlərinin kəmiyyət və keyfiyyətinin artırılmasının Dövlət Komitəsinin bundan sonrakı fəaliyyətinin də əsas istiqamətlərindən biri olduğunu bildirib. S.Salahlı dini maarifləndirmə işinin aparılmasında dini icmaların da üzərinə böyük vəzifə və məsuliyyət düşdüyünü qeyd edib. Natiq onları müasir dövrün bəlası hesab edilən dini radikalizmə, xurafata yol açan amillərin qarşısını almaqda, milli-mənəvi dəyərlər ruhunda gənc nəsil yetişdirməkdə fəal olmağa çağırıb.

DQİDK-nın Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov dini radikalizmin ictimai təhlükəsizliyə təsiri barədə danışıb. Ə.Zülfiqarov dini ekstremizmin yayılmasının qarşısının alınması və gənclərə sirayət etməməsi üçün həyata keçirilən dini maarifləndirmənin önəminə diqqət çəkib. DQİDK-nın şöbə müdiri radikal dini təbliğata qarşı ənənəvi İslam dininin prinsiplərinin və sağlam ideyalarının təbliğinin əhəmiyyətinə toxunub.

Seminar-müşavirə iştirakçıları maraqlandıran sualların cavablandırılması ilə yekunlaşıb.

# NƏRİMANOV RAYONUNDA RADİKALİZMƏ QARŞI MÜBARİZƏ MÖVZUSUNDA SEMİNAR-MÜŞAVİRƏ KEÇİRİLİB

*Yanvarın 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Nərimanov Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları" mövzusunda seminar-müşavirə keçirilib.*



Nərimanov Rayon İcra Hakimiyyətində keçirilən seminar-müşavirədə DQİDK sədrinin müavini Səyavuş Heydərov, Nərimanov RİH başçısının birinci müavini Şahmar İbadov, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidmətinin vəzifəli şəxsləri, eyni zamanda bu qurumların Nəsimi, Yasamal və Nərimanov rayonlarındakı yerli strukturlarının məsul nümayəndələri, prokurorlar iştirak ediblər.

Tədbirdə öncə DQİDK-nın sifarişi ilə çəkilmiş, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmi nümayiş etdirilib. Daha sonra Ümummilli Lider Heydər Əliyev və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Seminar-müşavirəni giriş sözü ilə açan Nərimanov RİH başçısının birinci müavini Şahmar İbadov mövzunun əhəmiyyətindən danışaraq bildirib ki, keçirilən tədbir gənclərin maarifləndirilməsi baxımından önəmlidir.

Azərbaycanda dövlət və din münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini bildirən DQİDK-nın sədr müavini Səyavuş Heydərov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərlik etdiyi respublikamızda vicdan azadlığı yüksək səviyyədə təmin edilməklə, bütün dinlərə bərabərhüquqlu münasibət göstərilir.

Bakıda keçirilən mədəniyyətlərarası və humanitar forumların əhəmiyyətindən danışan S.Heydərov bunu ölkəmizin, xüsusilə ölkə başçısının dinlərarası və sivilizasiyalararası dialoqa verdiyi töhfənin təzahürü kimi qiymətləndirib. Natiq deyib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə 2016-cı ilin respublikamızda "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan edilməsi bütün dünyada, eləcə də müsəlman aləmində sülhə və birgəyaşayışa çağırışdır.

Dini radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları ilə bağlı da çıxış edən S.Heydərov bildirib ki, radikal təsirə məruz qalmış insanlar ətrafında sosioloji, psixoloji, teoloji və hüquqi anlamda reabilitasiya işləri gücləndiriləcək.

Həmçinin Yaxın Şərqdə gedən proseslərə nəzər salan natiq qeyd edib ki, bu, İslam dinini gözdən salmaq istəyən qüvvələrin məkrli siyasətinin nəticəsidir. Onun sözlərinə görə, dünyada, o cümlədən regionumuzda münaqişələrin və iğtişaşların artmasına baxmayaraq, Ulu Öndərimiz Heydər Əliyevin siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ictimai-siyasi və dini sabitlik mövcuddur.

Bəzi dairələr tərəfindən radikal yönümlü dini cərəyanların Azərbaycana ixrac olunmasına cəhdlərin edildiyini vurğulayan S.Heydərov bunun qarşısının müvafiq dövlət qurumları, o cümlədən hüquq-mühafizə orqanları tərəfindən qətiyyətlə alındığını bildirib. DQİDK sədrinin müavini hər kəsi yad dini ideologiyalardan qorunmaq üçün müvafiq icazəsi olmayan ədəbiyyatlardan istifadə etməməyə, ümumiyyətlə radikal dini təsirlərə məruz qalmamaq üçün daha diqqətli olmağa çağırıb.

Baş Prokurorluğun idarə rəisinin müavini Rauf Məmmədov müvafiq sahə üzrə qanunvericiliyə diqqət çəkərək, dini radikalizm və ekstremizm probleminə qarşı mübarizənin hüquqi əsasları barədə geniş məlumat verib.

Daha sonra çıxış edən Daxili İşlər Nazirliyinin nümayəndəsi Oqtay Tağıyev dini radikalizm və ekstremizmə qarşı mübarizə çərçivəsində ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə daxili işlər orqanlarının fəaliyyətinin əsas istiqamətlərindən danışıb, təmsil etdiyi qurumun müvafiq sahədə həyata keçirdiyi profilaktik və inzibati tədbirlərdən söz açıb.

Sonda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Bəhruz Əzizov dindarlara göstərdiyi qayğı üçün ölkə rəhbərliyinə təşəkkürünü bildirib.

# DQİDK-NIN SƏDR MÜAVİNİ: FANATİZM VƏ RADİKALİZMƏ MƏRUZ QALANLARLA İŞ APARILACAQ



*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov Modern.az saytının suallarını cavablandırıb.*

**- Bildiyiniz kimi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidməti arasında dini ekstremizmə qarşı mübarizənin 2018-ci il ərzində də davam etdirilməsi məqsədilə Tədbirlər Planı imzalanıb. Tədbirlər Planına nələr daxildir? Əsasən hansı bölgələrdə bu iş aparılacaq?**

- Ötən il olduğu kimi, 2018-ci il ərzində də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidməti arasında dini ekstremizmə qarşı mübarizənin davam etdirilməsi məqsədilə Tədbirlər Planı imzalanmışdır. Tədbirlər Planında dini ekstremizmə və onu doğuran səbəblərə qarşı birgə mübarizənin aparılması, bu istiqamətdə fəaliyyət göstərən qurumlar arasında koordinasiya işinin gücləndirilməsi məqsədilə respublikanın bütün bölgələri əhatə olunmaqla seminar-müşavirələrin keçirilməsi nəzərdə tutulmuşdur. İctimaiyyət nümayəndələrinin, xüsusilə gənclərin cəlb olunacağı bu tədbirlərdə Azərbaycan Respublikasında mövcud dövlət-din münasibətləri, bu sahədəki təhdidlər və tendensiyalar, eləcə də dini ekstremizmin yaranma səbəbləri və ona qarşı mübarizənin hüquqi əsasları, mübarizə taktikası və təcrübəsi barədə geniş fikir mübadiləsinin aparılması planlaşdırılır.

**- Bu barədə 2017-ci ildə problem aşkarlanıbmı? Dörd qurumun birgə fəaliyyət göstərəcəyi onu deməyə əsas verirmi ki, hansısa təhlükənin olması gözlənilir?**

- Azərbaycanda dini sahədə stabil mühit mövcuddur və ölkəmiz dini nöqteyi-nəzərdən dünyanın ən sabit ölkələrindən biri hesab olunur. Azərbaycan konfessiyalararası və məzhəblərarası münasibətlər baxımından da nümunəvi ölkədir. Lakin təəssüflər olsun ki, bu sabitliyi gözü götürməyən, ölkə xaricindən qaynaqlanan bəzi qüvvələr tərəfindən müəyyən cəhdlər müşahidə edilməkdədir. Dövlət Komitəsinin digər qurumlarla birgə dini radikalizmlə mübarizə sahəsində qarşıya qoyduğu prioritetlər əsasən üç istiqamət – ideoloji, inzibati və iqtisadi dayaqların neytrallaşdırılması üzrə müəyyənləşdirilmişdir və icrası da sistemli şəkildə həyata keçirilir. Komitə tərəfindən əsasən ideoloji, yəni maarifləndirmə işinə önəm verilir.

Cari ildə də plan üzrə nəzərdə tutulmuş tədbirlər dini fanatizm, radikalizm və ekstremizm meyillərinə qarşı preventiv və maarifləndirici mahiyyət daşıyır. Belə ki, dünyada dini zəmində qlobal təhlükəsizlik problemlərinin getdikcə artdığını nəzərə alaraq, bəzi xarici dövlətlərin təsiri altında olan siyasi və dini dairələrin din pərdəsi altında ölkəmizin dini mühitinə müdaxilə cəhdlərinin qarşısının alınması, ən əsası, dindar kontingentin İslam dünyasında gedən mürəkkəb və təhlükəli proseslərdən sığortalanması, o cümlədən radikal dini cərəyanlarla mübarizədə effektivliyin təmin olunması üçün aidiyyəti hüquq-mühafizə, icra və digər dövlət qurumları ilə birgə aparılan kompleks işlərin davam etdirilməsinin zəruriliyi xüsusi əhəmiyyət kəsb edir.

Artıq dini mühitə neqativ təsir göstərən amillər və istiqamətlər üzrə keçirilən birgə tədbirlər öz müsbət nəticəsini verir. Xüsusilə, 2017-ci ildə ölkə xaricindən qaynaqlanan müəyyən radikal və milli kimliyimizə zidd təbliğat aparan qrupların dini fəaliyyət sahəsində cərəyan edən proseslərə təsir etmək məqsədilə ölkəyə dini ədəbiyyatın idxalına, çapına və yayılmasına xüsusi önəm verdiyi nəzərə alınaraq, ölkədə dini ayrı-seçkilik və qarşıdurma meyillərinin yayılmasına rəvac verilməməsi, dini dözümlülük mühitinə mənfi təsir göstərə biləcək ədavəti, nifrəti, ekstremizmi və radikallığı təbliğ edən dini təyinatlı ədəbiyyatın ölkəyə gətirilməsi və nəşrinin qarşısının alınması məqsədilə müvafiq qabaqlayıcı birgə tədbirlər keçirilmişdir. Belə ki, ötən il DQİDK-da ümumilikdə 1540 adda dini məzmunlu ədəbiyyatın idxal edilməsi məsələsinə baxılaraq, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 63 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısı alınmışdır. Nəşr olunmaq məqsədilə ekspertizaya təqdim edilmiş 313 adda dini ədəbiyyatın 4-nün çapı məqsədəuyğun sayılmamışdır. 613 adda dini təyinatlı ədəbiyyat üçün nəzarət markaları verilmişdir. Hüquq-mühafizə orqanları tərəfindən ekspertiza məqsədilə təqdim edilmiş 2106 adda dini təyinatlı ədəbiyyata baxılaraq, onlardan 99-nun zərərli, yaxud müvafiq razılıq alınmadan idxal və istehsal olunduğu müəyyən edilmişdir.

**- Bilmək istəyirik ki, Azərbaycanda hansı qeyri-ənənəvi dini təriqətlər daha çoxdur? Ümumiyyətlə, qeyri-ənənəvi dini təriqətlərin olması təhlükəlidirmi?**

- Azərbaycan Respublikasının Konstitusiyası, eləcə də din sahəsi ilə bağlı digər qanunvericilik bazası etiqadından asılı olmayaraq vətəndaşların vicdan azadlığının təmin edilməsi və qorunması prinsiplərini təmin edir. Dövlətin din siyasəti də məhz bu qanunvericiliyə uyğun olaraq həyata keçirilir, vətəndaşların əqidə seçiminə hörmətlə yanaşılır və bərabərhüquqlu münasibət göstərilir.

Dini icmaların "ənənəvi" və "qeyri-ənənəvi" formada təsnifatına gəlincə bu, ictimai-siyasi, yaxud hüquqi mahiyyət daşımır, bu, yalnız tarixi-kulturoloji kontekstdə başa düşülməlidir. Azərbaycanda dini icmalar şərti olaraq "ənənəvi" və "qeyri-ənənəvi"lərə bölünür. Bu baxımdan tarixən Azərbaycanda İslam dini ilə yanaşı, xristianlığın Rus-pravoslav, Gürcü-pravoslav, Katolik, Alban-Udi, eləcə də yəhudi icmaları mövcud olmuşdur ki, onlar ölkəmiz üçün ənənəvi dini icmalar kimi xarakterizə olunur. Digərləri isə ölkəmizdə nisbətən yeni yarandıqlarına görə qeyri-ənənəvi dini icmalar sayılır. Lakin bəzən cəmiyyətdə yanlış olaraq belə fikir formalaşır ki, guya qeyri-ənənəvi dini icmaların hamısı qəbuledilməzdir, yaxud da fəaliyyətləri destruktiv mahiyyət daşıyır. Belə yanaşma doğru sayılmır. Yenə də o fikri vurğulayırıq ki, dövlətin dini icmalara münasibəti onların ənənəvi və ya qeyri-ənənəvi olmasına görə deyil, mövcud qanunlara əməl edib-etməməsinə görədir. İstər ənənəvi, istər qeyri-ənənəvi olsun, əgər din sahəsi ilə bağlı qanunvericiliyin pozulması faktı aşkarlanarsa, bu istiqamətdə hüquqi müstəvidə adekvat addımlar atılacaqdır.

**- Azərbaycanda dini mühit sabit olsa da, müəyyən vasitələrlə radikalların təsirinə məruz qalaraq ailələri ilə birlikdə ölkəni tərk edib, xaricdəki qeyri-qanuni hərbi birləşmələrin tərkibinə qoşulanlar da var. Bu istiqamətdə aşkarlanan faktlar üzrə mütəmadi olaraq inzibati tədbirlər həyata keçirilir, əlavə tədbirlərin görülməsi də planlaşdırılırmı?**

- Təbii ki, Dövlət Komitəsi bu istiqamətdə aidiyyəti qurumlarla əməkdaşlığını davam etdirir, xüsusilə valideynlərini itirmiş uşaqların ölkəyə yenidən gətirilməsi diqqət mərkəzində saxlanılır. Lakin məsələ təkcə bununla bitmir. Radikal təsirə məruz qalmış insanlar ətrafında sosioloji, psixoloji, teoloji və hüquqi anlamda reabilitasiya işləri görülməlidir. Məhz bu baxımdan qeyd olunan Tədbirlər Planında qarşıya qoyulan istiqamətlərdən biri də fanatizm, radikalizm kimi mənfi təsirlərə məruz qalmış insanların reabilitasiyasının həyata keçirilməsi, onların cəmiyyətə inteqrasiyasının imkanlarını araşdırmaqla bu istiqamətdə birgə tədbirlərin görülməsidir. DQİDK-nın nəzdində yaradılmış "Mənəvi Dəyərlərin Təbliği Fondu"nun imkanlarından da bu istiqamətdə geniş istifadə olunması planlaşdırılır. Belə ki, Fondun nizamnaməsində dini radikalizmdən əziyyət çəkən şəxslərin cəmiyyətə yenidən inteqrasiyası kimi məsələlər öz əksini tapmışdır.

# DİNİ EKSTREMİZMƏ QARŞI MÜBARİZƏYƏ DAİR TƏDBİRLƏR PLANI TƏSDİQLƏNİB




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidməti arasında dini ekstremizmə qarşı mübarizənin 2018-ci il ərzində də davam etdirilməsi məqsədilə Tədbirlər Planı imzalanıb. Tədbirlər Planında dini ekstremizmə və onu doğuran səbəblərə qarşı birgə mübarizənin aparılması, istiqamətdə fəaliyyət göstərən qurumlar arasında koordinasiya işinin təşkili məqsədilə respublikanın bütün bölgələri əhatə olunmaqla seminar-müşavirələrin keçirilməsi nəzərdə tutulub. İctimaiyyət nümayəndələrinin də cəlb olunacağı bu tədbirlərdə Azərbaycan Respublikasında mövcud dövlət-din münasibətləri, bu sahədəki təhdidlər, eləcə də dini ekstremizmin yaranma səbəbləri və ona qarşı mübarizənin hüquqi əsasları, ölkəmizdəki multikultural mühit və tolerantlıq ənənələri, müxtəlif dinlər və məzhəblər arasında əməkdaşlığa dair mövzularda geniş fikir mübadiləsinin aparılması planlaşdırılır.

# "Ölkəmiz İslam dünyasında özünün uzlaşdırıcı, barışdırıcı və sülhpərvər mövqeyi ilə nümunəyə çevrilib"



*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin köməkçisi Amil Cavadov "Palitra" qəzetinə Azərbaycanın İslam dünyasına verdiyi töhfəsindən bəhs edib.*

Komitə sədrinin köməkçisi bildirib ki, 2017-ci il Azərbaycanın İslam mədəniyyətinin təbliği və təşviqi, ənənələrinin qorunması, İslam dininin dünya ictimaiyyətinə olduğu kimi çatdırılması və ən əsası, İslamı gözdən salmağa çalışan dairələrin hərəkətlərinə qarşı arqumentlərin ortaya qoyulması işinə verdiyi töhfələrlə tarixə düşdü.

O vurğulayıb ki: "Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyevin toxunduğu məsələlərdən biri də İslam həmrəyliyi və multikulturalizmlə bağlı idi. Doğrudan da Azərbaycan dünyada həm İslam həmrəyliyinin gücləndirilməsi, həm də multikulturalizmin təbliği üçün əvəzolunmaz ölkəyə çevrilir. Ötən il də bu sahədə bir sıra vacib işlər görüldü, 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi isə İslam aləmində çox böyük dəstəyə və rəğbətə səbəb oldu. Yola saldığımız ilin "İslam Həmrəyliyi İli" elan edilməsi göstərir ki, Azərbaycan xalqı öz tarixi, dini köklərinə bağlıdır. Ümumiyyətlə, Azərbaycan tolerantlıq mayakına çevrilib və ölkəmizdə əsrlərə söykənən multikultural dəyərlər mövcuddur. Bu gün də da bütün dinlərin, millətlərin nümayəndələri ölkəmizdə bir ailə kimi yaşayır".

Bundan əlavə, A.Cavadov qeyd edib ki, Prezident cənab İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi "Multikulturalizm İli"nin məntiqi davamı olmaqla yanaşı, istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə son dərəcə əhəmiyyətli, uğurlu siyasi, ideoloji addım idi: "Bu Sərəncam dövlət başçımızın İslam dininə, müsəlman dünyasına verdiyi yüksək dəyərin göstəricisidir. Ancaq cənab Prezidentin də qeyd etdiyi kimi, İslam həmrəyliyi dedikdə müsəlman dünyasında həmrəylik nəzərdə tutulmamalıdır. O, həmçinin İslam aləmi ilə digər konfessiyalar arasında harmoniyanı özündə ehtiva edir. Ötən il baş verən hadisələr müasir dövrdə müstəqil siyasət aparmaq kimi çox çətin bir işin öhdəsindən öz zəngin və uzaqgörən siyasəti ilə gələn ölkə rəhbərimizin sözügedən Sərəncamının əhəmiyyətini əyani şəkildə ortaya qoydu. Acı olsa da, etiraf etməliyik ki, İslam dünyasında bəzi məsələlərlə əlaqədar ziddiyyətlər, fikir ayrılıqları, hətta ayrı-ayrı müsəlman ölkələri arasında qarşıdurmalar var. Məsələnin ən ağrıverici tərəfi odur ki, bəzi hallarda bu problemlərin kökündə məzhəb, yaxud təriqət fərqliliyi dayanır. Azərbaycan isə bütün müsəlman ölkələri ilə xoş münasibətlər qurub. Məhz bu özəlliyi sayəsində ölkəmiz İslam dünyasında özünün uzlaşdırıcı, barışdırıcı və sülhpərvər mövqeyi ilə nümunəyə çevrilib. Cənab Prezidentin də dediyi kimi, "Azərbaycan İslam aləmində çox böyük hörmətə malik bir ölkədir. Bəzən bir-biri ilə yola getməyən müsəlman ölkələri də bizə böyük hörmətlə yanaşırlar. Nəyə görə? Çünki bizim siyasətimiz səmimidir, düzgündür, ədalətlidir, prinsipialdır və cəsarətlidir. Bax, budur bizim siyasətimiz".

Dövlət Komitəsi sədrinin köməkçisi vurğulayıb ki, "İslam Həmrəyliyi İli" çərçivəsində ölkəmizdə və onun hüdudlarından kənarda həyata keçirilən layihələrin, təşkil olunan genişmiqyaslı konfransların, tədbirlərin və görüşlərin nəticələrini təhlil etsək, əminliklə deyə bilərik ki, 2017-ci il Azərbaycanın İslam mədəniyyətinin təbliği və təşviqi, ənənələrinin qorunması, İslam dininin dünya ictimaiyyətinə olduğu kimi çatdırılması və ən əsası, İslamı gözdən salmağa çalışan dairələrin hərəkətlərinə qarşı arqumentlərin ortaya qoyulması işinə verdiyi töhfələrlə tarixə düşdü.

# "Mənəvi dəyərlərin qorunması xalqımızın gələcəyi üçün vacibdir"

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılovun SİA-ya müsahibəsi:*

**- Mehman müəllim, əvvəlcə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması zərurəti barədə məlumat verməyinizi xahiş edirik.**

- Mənəvi Dəyərlərin Təbliği Fondu cənab Prezident İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə yaradılmışdır. Həmin fərmanla Fondun Nizamnaməsi də təsdiq olunub. Bildiyiniz kimi mədəniyyətin iki yönü var - maddi və mənəvi. Təbii ki, bunlar bir-birini tamamlayırlar. Azərbaycan xalqının mədəniyyəti tariximizin müxtəlif mərhələlərindən keçib. Xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan, birliyimizi təmin edən milli-mənəvi dəyərləri qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur və həmin o dəyərlərin qorunması məsələsi çox vacibdir. Azərbaycan dövlətinin, Prezidentinin də bu sahəyə ayırdığı diqqət onu göstərir ki, mənəvi dəyərlərin inkişafı, qorunması bizim cəmiyyət, xalqımızın gələcəyi üçün nə qədər vacibdir.

Ümumiyyətlə, mənəvi dəyərlər dedikdə nə nəzərdə tutulur? Dəyər xalqın və cəmiyyətin əksəriyyətinin qəbul etdiyi, hörmət etdiyi, qoruduğu və nəsildən-nəsilə ötürdüyü bir amildir. Bir dəyərin dəyərə çevrilməsi üçün ən az üç nəslin dəyişməsi lazımdır. Əlbəttə ki, bizim də dəyərlərimiz müəyyən dövrlərdə nəsildən-nəsilə ötürülüb və bizə gəlib çatan dəyərdir. Bəzən mənəvi dəyər dedikdə, sadəcə, dini dəyərlər və yaxud da əxlaqi dəyərlər başa düşülür. Amma əslində mənəvi dəyərlərin əhatə dairəsi çox genişdir. Yəni dil, din, mədəniyyət, bayraq, marş, adət-ənənə hamısı mənəvi dəyər hesab olunur. İctimai, əxlaqi, dini dəyərlər, adət-ənənələr, hətta deyərdim ki, beynəlmiləl dəyərlər hamısı birləşərək bir xalqın mənəvi dəyərlər sistemini meydana gətirir. Ona görə də mənəvi dəyərlər həm də bir xalqın mədəniyyətinin təməlidir. Məhz Azərbaycan dövlətinin də Mənəvi Dəyərlərin Təbliği Fondunu yaratmaqda məqsədi bizim mədəniyyətimizin təməl daşını daha da sağlamlaşdırmaqdır. Biz bu gün çalışacağıq ki, dövlətin bu siyasətini həyata keçirək və bu sahənin inkişafına əlimizdən gələni əsirgəməyək.

**- Fondun fəaliyyətinə ümumi nəzarəti hansı orqan həyata keçirir?**

- Mənəvi Dəyərlərin Təbliği Fondunun Nizamnaməsi təsdiq olunub. Nizamnamədə göstərilir ki, Fondun fəaliyyətinə ümumi nəzarəti beş nəfərdən ibarət Himayəçilər Şurası həyata keçirəcək. Bu üzvlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri tərəfindən beş il müddətinə ora təyin olunur. Beş ildən sonra isə təkrar bu müddət uzadıla bilər. Himayəçilər Şurasının Mənəvi Dəyərlərin Təbliği Fonduna əsas nəzarəti nədən ibarətdir. Hər şeydən öncə Himayəçilər Şurası Fondun fəaliyyət istiqamətlərini təyin edir. Hətta Fondun fəaliyyəti ilə bağlı müxtəlif təkliflərlə çıxış edə bilir. Ümumilikdə isə Fondun hesabatlarına rəy verir və ildə ən az iki dəfə toplanır.

**- Mehman müəllim, Mənəvi Dəyərlərin Təbliği Fondu tam gücü ilə nə vaxtdan fəaliyyətə başlayacaq və strukturu necə formalaşacaq?**

- Fondun fəaliyyəti üçün artıq hazırlıq işləri tamamlanmaq üzrədir. Düşünürəm ki, 2018-ci ilin fevral ayının sonlarından etibarən Fond tam gücü ilə fəaliyyətə başlayacaq. Fondun işçilərinin sayı 15 nəfərdən ibarətdir. Bura icraçı direktor, icraçı direktorun müavini və digər işçilər daxildir. Bildiyiniz kimi Fond Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərəcək. Fondun icraçı direktorunu və direktor müavinlərini DQİDK-nın sədri təyin edir. Digər işçilər isə icraçı direktor tərəfindən təyin olunur.



**- Fond fəaliyyətə başladığı dövrdə onun fəaliyyət sferası hansı sahələri əhatə edəcək?**

- Qeyd edim ki, Fondun Nizamnaməsi çox genişdir. Lakin bilmək lazımdır ki, yeni qurulan Fondun Nizamnaməsini ilk dövrdən əhatəli şəkildə qurmaq bir qədər çətindir. Amma gələcəkdə Nizamnaməni tam əhatə edəcək şəkildə Fondun fəaliyyəti planlaşdırılır. Biz çalışacağıq ki, bu Nizamnaməyə uyğun olaraq tamamilə geniş şəkildə fəaliyyət göstərək. Hər şeydən əvvəl Nizamnamədə göstərildiyi kimi Fond milli-mənəvi dəyərlərin qorunmasına və inkişafına, dini qurumların və vətəndaşların dini etiqad azadlığının təmin olunmasına dövlət dəstəyi verən bir qurumdur. Fond bu sahələri əhatə edəcək. Bu sahələrlə bağlı gələcəkdə müəyyən seminarların, konfransların, sosial layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Bundan başqa aztəminatlı ailələrin dəfn xərcləri, müəyyən qisim olmaqla onların təhsil haqqlarının ödənilməsi, məscidlərin təmiri və bərpasına yardımçı olacaq. Həmçinin gələcəkdə "Dini Etiqad Azadlığı" Qanununa uyğun olaraq dini ədəbiyyatın, video və audio materialların hazırlanmasına dəstək verilməsi kimi amillər də nəzərdə tutulur.

# DİN FAKTORUNUN İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ SİSTEMİNƏ TƏSİRİ

*İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı, qlobal informasiya cəmiyyətinin formalaşması milli və beynəlxalq aləm üçün imkan və yeniliklər gətirməklə yanaşı, təhlükəsizlik mühiti üçün yeni problemlər yaradır. Bu səbəbdən dövlətin informasiya təhlükəsizliyi müasir beynəlxalq münasibətlərin əsas problemlərindən birinə çevrilir.*

Dövlətin qarşısına qoyduğu qlobal informasiya sahəsinin sürətli inkişafına səbəb olan təhlükələr sırasında informasiya terrorizmi və cinayətkarlığını, həmçinin dövlətlərarası informasiya mübarizəsini qeyd etmək lazımdır. İnternet medianın geniş yayılması ilə sosial şəbəkələr, informasiya təhlükəsizliyi və xarici siyasət sahəsi informasiya fəaliyyətinin yeni aspektləri ilə zənginləşdi.

Müasir dövrü haqlı olaraq informasiya əsri adlandırırlar. Yeni texnologiyalar, qlobal kommunikasiya şəbəkəsi həyatımızın, demək olar, bütün fəaliyyət sahələrini əhatə edir. Onlar insanların həyat keyfiyyətini dəyişir, iqtisadiyyat və humanitar məkanın qloballaşmasına köməklik göstərir. Eyni zamanda, informasiya sahəsində mövcud olan risklər və təhlükələri də nəzərə almaq lazımdır. Aydındır ki, ayrı-ayrı ölkələr qlobal informasiya məkanında həm iqtisadi, həm də hərbi-siyasi məqsədlərinə çatmaq, öz maraqlarını təmin etmək üçün informasiya sistemlərindən fəal istifadə etməyə çalışırlar.

Son dövrlər qlobal şəbəkələrdə terror yönümlü materiallar açıq şəkildə yayılır. Məsələn, informasiya texnologiyalarından yararlanmaqla kredit-maliyyə müəssisələrinin korporativ şəbəkələrinə qeyri-qanuni daxil olaraq törədilən cinayətlərin, eləcə də dini ekstremist çağırışlar edən, məzhəblərarası və konfessiyalararası münasibətlərə ciddi zərbə vuracaq təhrikedici materialların sayı artıb.

İnternetin Azərbaycan seqmentinin dayanıqlığı və təhlükəsizliyini təmin etmək vacibdir. Burada söhbət internet şəbəkəsinə çıxışı məhdudlaşdırmaqdan, total nəzarət altına almaqdan, insanların qanuni haqlarını, ictimai təşkilatların, biznes və informasiya sahəsində mənafelərini məhdudlaşdırmaqdan getmir. KİV azadlığı, vətəndaşların məlumat almaq və yaymaq hüququ hər bir demokratik dövlətin və cəmiyyətin, eləcə də istənilən demokratik hakimiyyətin idarəetmədə baza prinsiplərini təşkil edir.

Həmçinin dövlət vətəndaşları bu risklərdən qorumağa borcludur, o cümlədən bunun üçün dünyanın bir çox ölkələrində tətbiq olunan təcrübədən də istifadə etmək vacibdir. Ayrı-ayrı internet saytlarında terrorizm və ekstremizm, ksenofobiya və dini düşmənçilik təbliğatı aparılır, intihar aktı və ya narkotik hazırlamaq haqqında ətraflı danışılır ki, buna biganə qalmaq mümkün deyil. Bu faktlar bir daha göstərir ki, bu sahəyə dövlət nəzarətinə xüsusi ehtiyac var və internet üzərindən yayılan zərərli təbliğat-təşviqatın qarşısının alınması üçün preventiv tədbirlər görülməlidir.

Müasir şəraitdə mətbuat, radio və televiziya ölkənin informasiya təhlükəsizliyinin təmin edilməsində, eləcə də əhalinin və indiki müharibə şəraitində hərbçilərin mənəvi ruh yüksəkliyinin, psixoloji durumunun qorunub saxlanmasında, bütövlükdə ictimai rəyin formalaşdırılmasında mühüm amildir.

İnformasiya siyasəti hər bir cəmiyyət və dövlət təsisatları kimi, xüsusi yaradılmış orqanlar tərəfindən həyata keçirilir. İnformasiya sahəsində siyasətin təşkili və idarəetmənin əsas institutunu qanunvericilik, icra və məhkəmə hakimiyyəti təşkil edir. Dini ekstremizm və beynəlxalq terrorizm mənbəyi olan informasiya təhlükələrinə qarşı mübarizə mexanizminin təşkilati komponentləri dövlət orqanları hesab olunmalıdır.

Dövrümüzdə dini ekstremistlərin təhlükə mənbəyi olduğu informasiya təhdidlərinə qarşı mübarizənin səmərəliliyinin artırılması prioritet vəzifəyə çevrilir. Cəmiyyət həyatının bu və ya digər sahəsində, eləcə də hərbi-siyasi məqsədlərə səmərəli şəkildə nail olunması və qarşıya qoyulan vəzifələrin uğurlu həlli üçün dövlətin siyasi, hüquqi, iqtisadi, elmi-texniki, mənəvi-əxlaqi, informasiya, hərbi və digər ehtiyatlarından kompleks istifadə yalnız informasiya təhlükəsizliyinin təmin olunduğu şəraitdə mümkündür.

Son onilliklər ərzində beynəlxalq terrorizm, bəlkə də, dünyada baş qaldıran gərginliklərin əsas mənbəyi olub. Siyasi hakimiyyətə can atan ekstremistlər, ilk növbədə guya maraqlarını qoruduqları etnik və dini qrupların dəstəyinə ümid edirlər. Ən acınacaqlısı odur ki, onlar bəzən maliyyə vəsaiti şəklində, bəzən də siyasi lobbiçilik səviyyəsində dəstək alırlar. Nəticədə radikal fanatik qüvvələr bəzi hallarda de-fakto hakimiyyətə gəlirlər. Məsələn, Liviyada, Əfqanıstanda və Kosovoda belə bir təcrübə yaşandı. Bu gün planetin müxtəlif regionlarında qanuni hakimiyyəti devirmək cəhdləri davam etdirilir.

Azərbaycan Respublikasında mövcud dini durumu təhlil edərkən əvvəlcə dini vəziyyətin mahiyyətini açıqlamaq lazımdır. Qeyd etmək lazımdır ki, ciddi elmi-nəzəri mənbələrin heç birində bu anlayışın konkret izahı yoxdur. Dini vəziyyətə özündə müəyyən dövr ərzində cəmiyyətin sakral və sekulyar proseslərini xarakterizə edən şərtlərin məcmusu və sosial-siyasi vəziyyətin müxtəlifliyi kimi baxmaq olar.

Dini sahədə informasiya mübarizəsi aparmaq aşağıdakı şəkildə ortaya çıxa və informasiya məkanına təsir göstərə bilər (müxtəlif dövlətlərin timsalında):

– Müxtəlif konfessiyalar (İslam, Xristianlıq, Yəhudilik) arasında;

– Ənənəvi dinlər və qeyri-ənənəvi dini cərəyanlar arasında;

– Qeyri-ənənəvi dini qrupların öz aralarında (vəhhabilər, xəvariclər);

– Bir konfessiyanın müxtəlif cərəyanları və ya məzhəbləri, məsələn, Rusiya Federasiyasının Dağıstan vilayətində təriqətçilər və vəhhabilər arasında;

– Dövlət və ictimai təhlükəli dini hərəkatlar (indiki halda ənənəvi dinlərin ruhaniləri dövlət tərəfində çıxış edirlər) arasında;

– Dünyəvi hakimiyyətlə hakimiyyətə iddialı dini təşkilatlar arasında (Tatarıstanda islamçılar, Tacikistanda radikal dini qruplar, Qırğızıstanda "Təbliğ camaatı" və s.);

– Totalitar sektaların fəaliyyətindən zərər çəkmiş insanlar və tərəfdarları arasında (Aum Sinrike-Satanist kultlu yapon təriqətinin fəaliyyəti).

Dini ekstremistlərin və təhlükəli dini hərəkatların informasiya təhdidlərinə qarşı mübarizə mexanizminin təkmilləşdirilməsi günümüzün ən vacib məsələlərindən biridir. Azərbaycanda informasiya təhlükəsizliyi cəmiyyətin siyasi stabilliyinin möhkəmlənməsinə və informasiya azadlığının təmin olunmasına yönəlib.

Sözsüz ki, Azərbaycanın informasiya sahəsində təhlükəsizliyinin təmin olunması üçün son illər bir sıra mühüm addımlar atılıb. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası qəbul edilib. Konsepsiyaya əsasən, Azərbaycan Respublikasının təhlükəsizlik mühiti deyildikdə, onun suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqları, davamlı inkişafı, əhalisinin rifah və dəyərlərinin qorunmasına təsir edən amillərin məcmusu başa düşülür.

İnsan hüquqları, şəxsi həyatın toxunulmazlığı, müstəqil iqtisadi siyasət hüququnun pozulması dövlətlərin suverenliyinin birbaşa pozulması hesab olunmalıdır. Milli təhlükəsizliyin əsas komponentləri Konsepsiyanın "Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlər" bölməsində geniş izah olunub. Bölmədə respublikamızın milli təhlükəsizliyinə təhdidlərdən söz açılır və bu təhdidlər "Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə qəsdlər", "Qanunun aliliyinə nail olunması, ictimai asayişin qorunması və insan hüquq və əsas azadlıqlarının müdafiəsi sahəsində dövlət funksiyalarını yerinə yetirməyə qarşı fəaliyyət", "Separatçılıq, etnik, siyasi və dini ekstremizm", "Terrorçuluq və kütləvi qırğın silahlarının yayılması", "Regional münaqişələr və transmilli mütəşəkkil cinayətkarlıq", "Azərbaycan Respublikasının enerji infrastrukturuna qarşı fəaliyyət", "Xarici siyasi, hərbi və ya iqtisadi asılılıq", "İqtisadi qeyri-sabitlik", "Peşəkar insan ehtiyatlarının çatışmazlığı", "Regional hərbiləşdirmə" və "Ekoloji problemlər" adları altında qruplaşdırılır.

İnformasiya təhlükəsizliyinin möhkəmləndirilməsi Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında mühüm uzunmüddətli vəzifələri sırasında göstərilir. İnformasiya təhlükəsizliyinin rolu və onun yeri ölkənin milli təhlükəsizlik sistemində müəyyən edilir.

İnformasiya siyasəti dövlətin təhlükəsizlik siyasəti Konsepsiyasına uyğun olaraq informasiya sahəsində Azərbaycanın milli maraqlarını əks etdirən məqsədlərinin məcmusunu özündə əks etdirir. Dövlətin informasiya təhlükəsizliyi özündə müxtəlif amillərin təsiri altında formalaşan və fəaliyyət göstərən sistemi ehtiva edir.

Dövlətin informasiya təhlükəsizliyi siyasətinə etnosiyasi, milli, dini, iqtisadi, ekoloji və digər amillər təsir göstərir. Bu faktorlar təsir gücünə görə eyni deyil.

İnformasiya təhlükəsizliyi Azərbaycan Respublikasının milli təhlükəsizliyinin tərkib hissələrindən biri kimi cəmiyyətin və dövlətin həyatının müxtəlif sahələrində milli maraqların müdafiəsini ön plana çəkir.

Söhbət fövqəladə hallar şəraitində informasiya və telekommunikasiya sistemlərində, ümumdövlət, müdafiə sahəsində, hüquq-mühafizə və məhkəmə, iqtisadiyyat, daxili və xarici siyasət, elm və texnika sahələrində dövlətin informasiya təhlükəsizliyinin təmin edilməsindən gedir.

İnformasiya təhlükəsizliyi ölkə vətəndaşlarının maraqlarının və tələbatlarının, ictimai təsisatların və müəssisələrin, dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin təmin edilməsi üçün zəruri olan inkişafı, səmərəli fəaliyyət göstərməsini və kifayət qədər yüksək səviyyədə müdafiəsini nəzərdə tutur.

Bu mənada informasiya təhlükəsizliyinə din faktorunun təsirini araşdırmaq üşün bir neçə məqamı xüsusi araşdırmağa ehtiyac duyulur:

– Kütləvi informasiya vasitələri və dövlətin informasiya təhlükəsizliyinin təmin olunması sahəsində fəaliyyətin əlaqələndirilməsi üzrə dünyadakı mövcud tendensiyaları müəyyən etmək;

– Dinlər arasında qarşılıqlı, eləcə də ənənəvi və yeni dini cərəyanlar, dini ekstremizm və ehkamlar arasında əlaqələrin səviyyəsini müəyyənləşdirmək;

– Dövlətin informasiya siyasətinin formalaşması, dinin informasiya təhlükəsizliyi sisteminə təsir mexanizmini və xüsusiyyətlərini, istiqamətlərini və həddini müəyyən etmək;

– Dindən istifadə edərək milli düşmənçilik və konfessiyalararası münaqişələrin qızışdırılması məqsədilə yayılan informasiya təhlükələrinin mənbələrini aşkarlamaq;

– Müxtəlif konfessiyalar arasında dini zəmində etnosiyasi münaqişələrin informasiya mübarizəsinə keçməsi ehtimalını müəyyən etmək;

– Dövlətin ictimai təhlükəli dini hərəkatlar və dini ekstremist qruplar tərəfindən informasiya təhlükələrinə qarşı mübarizə mexanizminin təkmilləşdirilməsi istiqamətlərini müəyyən etmək.

Qərbin inkişaf etmiş dövlətlərində din amilinin milli təhlükəsizliyə təsiri problemlərinə həsr olunmuş araşdırmalar göstərir ki, xarici müəlliflər öz ölkələrinin milli təhlükəsizliyinə və dünyada stabilliyə əsas təhlükə qismində "İslam terrorizmi"ni və "İslam ekstremizmi"ni görürlər. Bu nəticə isə beynəlxalq aləmdə İslamla bağlı yanlış fikir formalaşmasından qaynaqlanır. Halbuki heç bir din, yüksək bəşəri dəyərləri, əxlaqi-mənəvi keyfiyyətləri özündə əks etdirən inanc sistemi terrorizm və ekstremizm üçün istinad mənbəyi ola bilməz.

Müsəlman ölkəsi kimi Azərbaycan Respublikasının milli və dini müxtəliflik mənzərəsi olduqca zəngindir. Məhz bu amil, eyni zamanda informasiya təhlükəsizliyi sahəsindəki həssaslığı, milli informasiya resurslarının qorunmasının vacibliyini önə çəkir və bu sahədə mümkün təhdidlərin qarşısının alınmasında effektli tədbirlərin gücləndirilməsini zəruri edir.



**Yaqut Əliyeva,**
DQİDK-nın İctimaiyyətlə
əlaqələr şöbəsinin müdiri

# PREZİDENTİN SƏRƏNCAMI UĞURLA İCRA OLUNUR

*Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama uyğun olaraq 2018-ci ilin yanvar ayı ərzində müxtəlif bölgələrdə tədbirlər keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) dəstəyi ilə cəmiyyətin maariflənməsində xüsusi rol oynayan bu cür tədbirlər:*

**5 yanvar** – Sabirabad rayonu Dadaşbəyli kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimiz" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərin qorunmasında İslam dininin rolu" mövzusunda; Quba rayonu Xucbala kənd məscidi dini icmasının "İslam sülh və tolerantlıq dinidir" layihəsi çərçivəsində;

**8 yanvar** – Saatlı rayonu Qazanbatan kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyi sülhə və əmin-amanlığa çağırışdır" layihəsi çərçivəsində "Dini radikalizm milli birlik və həmrəylik kimi dəyərlərimizə qarşıdır" mövzusunda; Şəki rayonu Baş Zəyzid kənd məscidi dini icması tərəfindən "Dini radikalizm İslam həmrəyliyinə və tolerantlıq prisiplərinə ziddir" layihəsi çərçivəsində;



**9 yanvar** – Bərdə rayon Lənbəran kənd "Hacı Həmid" məscidi dini icması tərəfindən "İslam həmrəyliyi: ortaq dəyərlər əsasında" layihəsi çərçivəsində "İslam həmrəyliyi – sülhə çağırışdır" mövzusunda; Kürdəmir şəhər "İmam Rza" məscidi dini icması tərəfindən "İslam həmrəylik və birliyə çağırış dinidir" layihəsi çərçivəsində; Cəlilabad rayonu Maşlıq kəndi "Şəhidlər" məscidi dini icması tərəfindən Vüqar Mürsəlov adına Göytəpə şəhər 1 saylı tam orta məktəbində "İslam həmrəyliyi: Azərbaycan nümunəsi" adlı layihəsi çərçivəsində; Ağstafa rayon Dağ Kəsəmən kənd "Eyyub ağa" məscidi dini icması tərəfindən "İslam həmrəyliyi sülhə və əmin-amanlığa çağırışdır" layihəsi çərçivəsində;

**10 yanvar** – Masallı rayonu Boradigah qəsəbəsi "Həzrəti Əli" məscidi dini icması tərəfindən "Azərbaycanda İslam həmrəyliyi: dünən və bu gün" adlı layihə çərçivəsində "İslamda Vətən sevgisi" mövzusunda; Biləsuvar rayonu İsmətli kənd "Əbülfəzl" məscidi dini icması tərəfindən "İslam həmrəyliyi-sülhə aparan yol" adlı layihə çərçivəsində;

**11 yanvar** – Qax şəhər məscidi dini icması tərəfindən "Mədəniyyət və din" adlı layihə çərçivəsində "Tarixdə İslam mədəniyyətinin digər mədəniyyətlərlə əlaqələri" mövzusunda; Qazax şəhər "Cümə" məscidi dini icması tərəfindən "İslam sülh, həmrəylik və qardaşlıq dinidir" layihəsi çərçivəsində "Ənənəvi İslam nümunələrinin qorunmasının vacibliyi" mövzusunda; Astara rayon Şahağacı kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyinin təbliğində məzhəblərarası dialoq" layihəsi çərçivəsində;





**12 yanvar** – Salyan rayonu Şorsulu kənd məscidi dini icması tərəfindən "İslamda həmrəyliyin əhəmiyyəti" layihəsi çərçivəsində; Quba rayonu Xucbala kənd məscidi dini icması tərəfindən "İslam sülh və tolerantlıq dinidir" layihəsi çərçivəsində;

**15 yanvar** – Şirvan şəhər "Zeynalabidin" məscidi dini icması tərəfindən "İslamda həmrəyliyin və tolerantlığın əhəmiyyəti" layihəsi çərçivəsində; Quba rayonu Ağbil kənd məscidi dini icması tərəfindən Güləzi kəndində "İslam həmrəyliyinin Azərbaycan modeli: keçmişdən müasir dövrə" adlı layihəsi çərçivəsində;

**16 yanvar** – Saatlı rayonu Şirinbəy kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyi və millli-mənəvi dəyərlərimizin təbliği" layihəsi çərçivəsində "İslam həmrəyliyi, milli-mənəvi dəyərlərimiz və təhsil" mövzusunda;

**17 yanvar** – Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd məscidi dini icması tərəfindən Cocuq Mərcanlı kənd məktəbində "Azərbaycan gənci: millilik, qazilik, şəhidlik" layihəsi çərçivəsində;

**18 yanvar** – Kürdəmir şəhər "İmam Rza" məscidi dini icması tərəfindən "İslam həmrəylik və birliyə çağırış dinidir" layihəsi çərçivəsində "İslamda Vətən sevgisi və şəhidlik" mövzusunda; Beyləqan rayonu Qarallar kənd məscidi dini icması tərəfindən "İslamda həmrəylik məzhəblərarası tolerantlıq müstəvisində" layihəsi çərçivəsində "İslam həmrəyliyi gənclərin gözü ilə" mövzusunda; Quba rayonu Ağbil kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyinin Azərbaycan modeli: keçmişdən müasir dövrə" layihəsi çərçivəsində; Biləsuvar rayonu İsmətli kənd "Əbülfəzl" məscidi dini icması tərəfindən "İslam həmrəyliyi - sülhə aparan yol" layihəsi çərçivəsində;




**19 yanvar** – Lənkəran rayonu Ləj kənd məscidi dini icması tərəfindən "İslam humanizm və həmrəylik dinidir" layihəsi çərçivəsində "İslam həmrəyliyi, milli-mənəvi dəyərlərimiz və şəhidlik" mövzusunda; Quba rayonu Xucbala kənd məscidi dini icması tərəfindən rayonun Çartəpə kəndində "İslam sülh və tolerantlıq dinidir" layihəsi çərçivəsində;

**22 yanvar** – Xəzər rayonu Mərdəkan qəsəbəsi "Heydər Cümə" məscidi dini icması tərəfindən "İslam həmrəyliyinin Azərbaycan modeli" layihəsi çərçivəsində;

**24 yanvar** – Ağstafa rayon Dağ Kəsəmən kənd "Eyyub ağa" məscidi dini icması tərəfindən "İslam həmrəyliyi sülhə və əminamanlığa çağırışdır" layihəsi çərçivəsində "İslam dinində Vətənə və xalqa sevgi" mövzusunda; Salyan rayonu Şorsulu kənd məscidi dini icması tərəfindən "İslamda həmrəyliyin əhəmiyyəti" layihəsi çərçivəsində; Bərdə rayon Lənbəran kənd "Hacı Həmid" məscidi dini icması tərəfindən "İslam həmrəyliyi: ortaq dəyərlər əsasında" layihəsi çərçivəsində "Dini radikalizm və ekstremizmin yaranma, yayılma metodlarına qarşı mübarizə" mövzusunda; Qax şəhər məscidi dini icması tərəfindən "Mədəniyyət və din" layihəsi çərçivəsində;

**25 yanvar** – Lənkəran rayonu Ləj kənd məscidi dini icması tərəfindən "İslam humanizm və həmrəylik dinidir" layihəsi çərçivəsində "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimiz" mövzusunda; Astara rayon Şahağacı kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyinin təbliğində məzhəblərarası dialoq" layihəsi çərçivəsində; Sabirabad rayonu Dadaşbəyli kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimiz" layihəsi çərçivəsində "İslam sülh, barışıq və həmrəylik dinidir" mövzusunda;

**26 yanvar** – Salyan rayonu Kürsəngi kənd məscidi dini icması tərəfindən "İslam həmrəyliyi-sülhə aparan yol" layihəsi çərçivəsində; Masallı rayonu Miyankü kənd məscidi dini icması tərəfindən "İslam dini: sülh və vəhdətə çağırış" layihəsi çərçivəsində "Azərbaycan tolerantlığın məkanıdır" mövzusunda; Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd məscidi dini icması tərəfindən "Azərbaycan gənci: millilik, qazilik, şəhidlik" layihəsi çərçivəsində;



**29 yanvar** – Masallı rayonu Boradigah qəsəbəsi "Həzrəti Əli" məscidi dini icması tərəfindən "Azərbaycanda İslam həmrəyliyi: dünən və bu gün" layihəsi çərçivəsində "Dinimiz imanımızdır" mövzusunda tədbir keçirilib.

Dindarların, dini icma sədrlərinin, ziyalıların, şagird və müəllimlərin, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) mərkəzi aparatının və bölgə şöbələrinin, şəhər və rayon icra hakimiyyəti orqanlarının əməkdaşları, ilahiyyatçılar və digərləri çıxış ediblər. Ölkəmizin zəngin milli-mənəvi dəyərlərindən, bu dəyərlərin qorunmasının və gənclər arasında təbliğinin əhəmiyyətindən danışan natiqlər tarixən ölkəmizdə məzhəblər arasında həmrəylik, dostluq, qardaşlıq münasibətlərinin hökm sürdüyünü vurğulayıblar. Həmçinin çıxışçılar dini radikalizm, onun cəmiyyət və bəşəriyyət üçün fəsadları haqqında və DQİDK-nın bu istiqamətdə həyata keçirdiyi maarifləndirmə tədbirləri barədə məlumat veriblər və İslam dininin elmə, təhsilə verdiyi önəmin əhəmiyyətindən danışıblar.

Tədbirlərdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.



# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ölkə ərazisində dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini davam etdirir. Bu istiqamətdə keçirilən tədbirlərdə ölkəmizdəki multikultural və tolerant mühit, həmçinin dini radikalizmə qarşı mübarizənin mahiyyəti haqqında çıxışlar edilir, dövlət-din münasibətlərinin hüquqi bazası barədə məlumat verilir, eləcə də dini icmaların maarifləndirmə sahəsində fəallığının daha da artırılması məqsədilə müzakirələr aparılır. Tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları ilə yanaşı, respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Keçirilən konfrans, seminar-müşavirə və seminar-treninqlər DQİDK-nın təşkilatçılığı ilə, eyni zamanda Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanan Tədbirlər Planına uyğun olaraq reallaşdırılır. Cari ay ərzində bu qəbildən tədbirlər:*



**8 yanvar** – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və "KCA Deutag" şirkətinin birgə təşkilatçılığı ilə "Həmrəylik – dini radikalizm və ekstremizmə qarşı mübarizədə effektiv vasitə" mövzusunda;

**10 yanvar** – Sumqayıt şəhəri 14 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimizi öyrənək və yaşadaq" mövzusunda;

**11 yanvar** – Sumqayıt şəhəri 14 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimiz bizi birləşdirir" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin və Quba Rayon Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə rayonun II Nügədi kəndinin 3 saylı tam orta məktəbində "Vətən sevgisi imandandır" mövzusunda; DQİDK-nın və Şirvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Şirvan şəhəri Gənclər Evində "Dini radikalizmə qarşı mübarizə" mövzusunda;

**16 yanvar** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sumqayıt şəhər 16 saylı tam orta məktəbdə "Şəhidlər ölməz, Vətən bölünməz!" mövzusunda;

**17 yanvar** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin və Mingəçevir şəhər 7 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə "Gənclərin radikal meyillərdən qorunması" mövzusunda; Quba şəhəri "Ərdəbil" məscidi dini icması, Quba rayonu Qırmızı qəsəbə Dağ yəhudiləri



dini icması və qəsəbə bələdiyyəsinin birgə təşkilatçılığı ilə "Ərdəbil" məscidində Azərbaycanın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş şəxslərin ailələri ilə görüş;

**18 yanvar** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Sumqayıt Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə şəhərin Cümə məscidində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş tədbir; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Yeni-Yaşma kənd tam orta məktəbində "Qanla yazılmış tariximiz" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir şəhər 3 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə "Gənclərin radikal meyillərdən qorunması" mövzusunda; Göyçay Rayon İcra Hakimiyyəti, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Yeni Azərbaycan Partiyasının Göyçay rayon təşkilatı və Xocalı Soyqırımını Tanıtma İctimai Birliyinin birgə təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 28-ci ildönümünə həsr olunmuş "Vətən sənə oğul desə" mövzusunda;

**19 yanvar** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayonu Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 28-ci



ildönümünə həsr olunmuş "Torpağı vətənə çevirənlər" mövzusunda;

**23 yanvar** – DQİDK-nın və "KCA Deutag" şirkətinin birgə təşkilatçılığı ilə "Həmrəylik – dini radikalizm və ekstremizmə qarşı mübarizədə effektiv vasitə" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala Rayon İcra Hakimiyyəti və Zaqatala Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərin qorunması hər bir Azərbaycan vətəndaşının müqəddəs vəzifəsidir" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin və Lənkəran Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "İslam Həmrəyliyi İli"nin yekunları və qarşıda duran vəzifələr mövzusunda;

**24 yanvar** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lerik Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Lerikin Şingədulan kənd tam orta məktəbində "Dini radikalizm və onun fəsadları" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Siyəzən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Siyəzən şəhərində "Narkomaniya və dini radikalizmə qarşı mübarizədə gənclərin maarifləndirilməsi" mövzusunda;

**25 yanvar** – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Sumqayıt şəhəri 22 saylı tam orta məktəbdə "Şəhidlik zirvəsi" mövzusunda; Zaqatalada "Azərbaycanda ənənəvi İslam dəyərləri" mövzusunda;

**26 yanvar** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonu Zərdabi qəsəbəsində "Vətən sevgisi imandandır" mövzusunda keçirilib.



Tədbirlərdə çıxış edən natiqlər müasir dövrdə bəşəriyyətin bəlasına çevrilmiş dini radikalizm, ekstremizm və onun fəsadlarından, radikalizmə qarşı mübarizədə maarifləndirici, profilaktik tədbirlərin görülməsinin vacibliyindən, ölkəmizdə mövcud olan zərərli dini cərəyanların fəaliyyətindən və onlara qarşı mübarizə üsullarından bəhs ediblər. Bildirilib ki, dini radikalizm müasir dövrün ən böyük bəlalarındandır və dini biliyi olmayan, onun əsl mahiyyətini dərk etməyən gənclər bəzən bilmədən bu yola düşürlər. Dünyanın dini radikalizmin törətdiyi acı nəticələrin qarşısında aciz qaldığı bir zamanda Azərbaycan dövləti düzgün ideoloji iş apararaq ölkəmizi bu cür qarşıqlıqlardan uzaqda tuta bilib. Gənc nəsil də var qüvvəsini elmə və sağlam inkişafa həsr etməklə öz müstəqil dövlətlərini, milli-mənəvi dəyərlərini qorumağa çalışmalıdır.

Həmçinin çıxışlarda mənəvi dəyərlər sistemimizin ayrılmaz parçası olan İslam dininin humanist və sülhsevər din olduğu diqqətə çatdırılıb və bu mövzuda maarifləndirmə tədbirlərinin təşkilinin xüsusi əhəmiyyətli olduğu vurğulanıb. Məruzəçilər milli-mənəvi dəyərlərin həmrəyliyimizdə xüsusi yer tutduğundan və gənclərin milli ruhda tərbiyə almasının zəruriliyindən danışıblar.

Tədbirlərdə, eyni zamanda iştirakçıları maraqlandıran suallar cavablandırılıb və DQİDK-nın sifarişi ilə çəkilən, dini radikalizmə qarşı mübarizədən bəhs edən "Fitnə" sənədli filmi nümayiş olunub.

# Nic qəsəbəsində Milad bayramı qeyd edilib

Yanvarın 7-də Qəbələ rayon Nic qəsəbəsi "Çotari" kilsəsində İsa Məsihinin mövludu günü – Milad bayramı qeyd edilib.

Bayram mərasimində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, icma üzvləri, qəsəbə sakinləri, yerli və xarici media nümayəndələri iştirak ediblər.

Tədbirdə Alban-Udi dini icmasının rəhbəri, kilsənin keşişi və icmanın üzvləri çıxış edərək Milad bayramının mahiyyətindən, dini ayinlərin icrası üçün yaradılan şəraitdən, dövlətin onlara olan diqqət və qayğısından danışıblar. Həmçinin, bayram münasibətilə təbriklər səsləndirilib.

Udilər rayonda onlara qarşı heç bir ayrı-seçkiliyin olmadığını, Nicdəki "Çotari" alban kilsəsinin əsaslı şəkildə bərpasının tolerantlığa gözəl nümunə olduğunu qeyd ediblər. Məlumat verilib ki, Nic qəsəbəsində üç kilsə və iki məscid var. Altı min nəfər əhalisi olan qəsəbədə 3700 udi yaşayır. Ümumilikdə isə ölkəmizdə 4000 nəfər udi yaşayır ki, onların 300-ü Oğuz və Bakıda qeydiyyatdadır. Dünyada yaşayan udilərin sayı isə 10 minə yaxındır. Qəsəbədə udilər öz dilini, dinini, adət-ənənələrini 2500 ildir ki, qoruyub saxlayırlar. Nicdəki məktəblərin ibtidai siniflərində udi dili tədris olunur, kilsədə dini ayinlər onların ana dilində icra edilir.

Qeyd edilib ki, keçmiş sovetlər dövründə udilərə öz milli bayramlarını qeyd etmək qadağan olunub. Ancaq ölkəmiz müstəqillik əldə etdikdən sonra onlar etnik xalq olaraq öz bayramlarını hər il qeyd edirlər. Bir sözlə, müsəlman və xristianların mehriban şəkildə birgə yaşadığı Nic qəsəbəsi tolerantlığın kiçik bir modeli hesab edilir.

Çıxışlardan sonra kilsədə şamlar yandırılıb, dualar oxunub, bayram süfrəsi açılıb.

# BÖLGƏLƏRDƏ "ŞƏHADƏT" SƏNƏDLİ FİLMİ NÜMAYİŞ OLUNUB

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) dini radikalizm və ekstremizmlə mübarizə məqsədilə silsilə tədbirlər həyata keçirir. Həmin tədbirlər çərçivəsində radikal dini təmayüllərin zərərli ideyalarına qarşı mübarizə məqsədilə kütləvi nəşrlər, o cümlədən maarifləndirici kitab, jurnal, broşürlər çap edilir, sənədli filmlər hazırlanır. Bunlardan biri də Dövlət Komitəsinin sifarişi ilə çəkilən "Şəhadət" sənədli filmidir. Filmdə Vətən uğrunda şəhadətə qovuşmuş qəhrəmanlarla yanaşı, dini fanatizm və radikalizmin təsirinə məruz qalan, bir sıra xarici ölkələrdəki ekstremist-terrorçu silahlı birləşmələrin tərkibində döyüşmüş şəxslərdən bəhs olunur. DQİDK əməkdaşlıq etdiyi qurumlarla birgə ölkə ərazisində "Şəhadət" sənədli filminin nümayişini həyata keçirir. Yanvar ayı ərzində filmin nümayişi:*





**10 yanvar** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saray qəsəbəsi H.Axundov adına 3 nömrəli tam orta məktəbdə; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Füzuli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Füzuli rayonu 5-ci Zobcuq qəsəbə tam orta məktəbində;

**11 yanvar** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Xızı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Sitalçay kənd tam orta məktəbində; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Tərtər Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Seydimli kənd tam orta məktəbində;

**12 yanvar** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Zərdab rayon Gənclər Mərkəzində,

**16 yanvar** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Siyəzən Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Siyəzən rayonu Yenikənd kəndində "Vətən sevgisi imandandır" mövzusunda;

**18 yanvar** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş rayon Heydər Əliyev Mərkəzində;

**19 yanvar** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lənkəran rayonu Daşdatük kənd ümumi orta məktəbində;

**26 yanvar** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbə-



sinin təşkilatçılığı ilə Bərdə şəhər 7 saylı ümumi orta məktəbdə; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Xaçmaz rayonu Qobuqırağı kənd məscidində keçirilib.

# İNDONEZİYANIN DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ MODELİ

*Əhalisinin sayına görə dünyanın ən böyük müsəlman dövləti olan İndoneziyada müxtəlif dinlərin nümayəndələri yaşayır. Ölkə əhalisinin 87 faizini müsəlmanlar, təxminən 10 faizini xristianlar, 3 faizini isə buddist, hinduist, konfutsiçi və digər dinlərin nümayəndələri təşkil edir.*

1945-ci ildə müstəqillik elan edildikdən sonra İndoneziyada özündə islami baxışları ehtiva edən, lakin dünyəvi idarəçilik yönümlü partiyaların qarşılıqlı razılaşması əsasında parlamentli respublika yaradılmışdır. 1967-ci ildən isə ölkə prezidentli respublikaya çevrilmişdir. İndoneziya hakimiyyəti dövlət siyasətinin həyata keçirilməsində fərdlərin dinə münasibətinə əhəmiyyəti versə də, dini icmaların və din xadimlərinin siyasətdən kənarda saxlanılması vacib sayır. Ölkə Konstitusiyasında dövlətin dünyəvi xarakter daşıdığı qeyd edilməsə də, dövlət siyasəti dünyəvi prinsiplər əsasında həyata keçirilir. İndoneziyada həm dünyəvi, həm də şəriət məhkəmələri fəaliyyət göstərir. Şəriət məhkəmələrinin iş prinspinin əsasında ölkədə spirtli içki və qumar kimi zərərli vərdişlərə qarşı mübarizə dayanır. Xüsusən də, Aceh vilayətində İslam normalarına əməl olunmasına daha çox diqqət yetirilir. Burada qadınların və kişilərin açıq-saçıq geyinməsinə icazə verilmir. Aceh kimi digər bəzi vilayət və ərazilərdə belə sərt qaydalara rast gəlinsə də, ümumi ölkə miqyasında dinə sekulyar yanaşma mövcuddur. Lakin paralel olaraq dini dəyərlərin ölkənin iqtisadi, siyasi və sosial həyatına təzahürü müşahidə edilir.

İndoneziya əhalisi fərqli din, dil, mədəniyyətə malik etnik qruplardan ibarətdir. Ölkədə mövcud etnik və dini müxtəliflik multikultural və tolerant dəyərləri özündə cəmləşdirən ideologiyanın irəli sürülməsini zəruri etmiş, bunun nəticəsində dövlət siyasətinin əsası olan "Pankasila" (hərfi mənada "5 prinsip") ideologiyası ortaya qoyulmuşdur. "İndoneziya xalqının həyat fəlsəfəsi" sayılan "Pankasila"nın banisi ölkənin ilk Prezidenti Suharto sayılır. Dövlət-din münasibətlərinin ölkə daxilində tənzimlənməsində bu ideologiya əsaslı rol oynayır. İdeologiyanın 5 başlıca prinsipi bunlardır.

1) Təkallahlılıq – bu prinsip İndoneziya xalqının tək Allaha inanmasına əsaslanır və axirətə inancı özündə ehtiva edir. Belə ki, 1945-ci ildə qəbul edilmiş ölkə Konstitusiyasında da təkallahlılıq prinsipi ifadə olunmuşdur: "Dövlət tək tanrı inancı üzərində inşa edilmişdir".

2) Ədalətli və müasir cəmiyyət – bu prinsipə əsasən, hər insan Allah bəndəsi olduğu üçün hörmətə və mərhəmətli davranışa layiqdir. Bu isə hər bir indoneziyalının etnik, dini mənsubiyyətinə görə zülmə, ayrı-seçkiliyə məruz qalmasını, qadağan edir.

3) Ölkənin vahidliyi – Dövlətçilik konsepsiyasını və vətən sevgisini səciyyələndirən bu prinsip etnik və dini kimliyə görə heç kimin heç kimdən üstün olmadığını bildirir. Fərqli din, etnik, mədəniyyət mənsubları olan indoneziyalıların "çoxluqla birlikdə" şüarı vəhdətin əhəmiyyətini xatırladır.

4) Demokratiya – qəbul edilən qərarların ədalətli olmasının vacibliyini bildirir. Burada qərarların hər hansı etnik, dini mənsubiyyətə üstünlük qazandırmaq məqsədilə qəbul edilməsinin yolverilməzliyinə toxunulur.

5) Sosial ədalət – bu prinsip dinamik, yenilikçi düşüncə ilə cəmiyyətdə rifahın təmin olunmasından, ölkənin bütün təbii resurslarının və potensialının xalq üçün istifadə edilməsindən ibarətdir. İdeologiyanın beşinci prinsipi xüsusilə əhalinin aşağı və yoxsul təbəqəsinin hüquqlarının müdafiəsi məqsədi daşıyır.

Göründüyü kimi, qeyd edilən prinsiplərin hər birinin mahiyyətində ölkənin multikultural və tolerant dəyərlərə böyük önəm verildiyinin şahidi oluruq. Dini-etnik müxtəliflik baxımından zəngin olan ölkənin öz bütövlüyünü və inkişafını təmin etmək üçün bu tip ideologiyadan istifadəsi anlaşılandır.

İndoneziyadakı müsəlman həyatı Yaxın Şərq və ərəb coğrafiyasına nisbətən fərqli xüsusiyyətlərə malikdir. Burada İslamın şərtlərinə əməl etmək tələb kimi irəli sürülmür, ancaq məqsədəuyğun sayılır. Bu arazi müsəlman coğrafiyasından uzaqda yerləşdiyindən, İslam dini burada bir qədər gec yayılmışdır. Ölkə daxilində onun təbliği müxtəlif xalqların nümayəndələri tərəfindən aparılmışdır. Nəticədə yerli xalqın öz adət-ənənələrinə bağlılığı səbəbindən bu din insanların yaşayış tərzinə uyğun formada qəbul edilmişdir.

Dünyanın bir çox ölkəsində olduğu kimi, dini ekstremizm İndoneziyadan da yan keçməmişdir. Belə ki, bəzi radikal islamçı qüvvələr "Pankasila"ya ideologiyasına qarşı çıxmışlar. Nəticədə 2002-ci ilin oktyabrında Bali adasında 186 nəfərin ölümünə, 300-dən çox insanın yaralanmasına səbəb olan terror aktı törədilmişdir.

Bu gün İndoneziyada dini durumu tənzimləmək üçün Dini İşlər üzrə Nazirlik fəaliyyət göstərir. Nazirlik, əsasən, dini təhsilə nəzarət mexanizmini həyata keçirir. Mədrəsələr, dini araşdırma institutları bu qurumun razılığı ilə fəaliyyət göstərirlər. Həmçinin nazirlik dini nikaha daxil olma və bu kimi şəriət məsələlərinə nəzarət edir.

Ümumi prizmadan baxdıqda İndoneziyanının din modelinin bir sıra müsbət və mənfi tərəfləri var. Müsbət tərəfi ölkənin rəngarəng etnik müxtəlifliyinə və 17 mindən çox adada yerləşməsinə baxmayaraq, tolerantlıq ənənələrinin yüksək səviyyədə təmin edilməsidir. Ölkədə dini ekstremist münaqişələrə demək olar ki, təsadüf olunmur. Bu baxımdan "Pankasila" ideologiyası bir çox ölkələr üçün nümunə sayıla bilər. Mənfi cəhət isə bəzi vilayətlərdə dini dözümsüzlük xarakteri daşıyan yerli adət-ənənələrə rast gəlinməsidir. Məsələn, Sumatra adasında müsəlmanların yaşadığı bəzi ərazilərdə qeyri-müsəlmanların, xüsusən də xristianların dini ayinlərini yerinə yetirmələrinə maneələr yaradılır. Bundan başqa, ölkə miqyasında qızların gənc yaşda ailə qurması halları müşahidə olunur. UNICEF-in hesabatına görə, ölkədə ailə quran hər 4 qadından birinin yaşı 18-dən aşağı olur. Digər tərəfdən ölkədə dünyəvi idarəçiliyin əsas götürülməsinə baxmayaraq, konstitusiyada dünyəviliyin maddə kimi öz əksini tapmaması müxtəlif dini partiyaların, xüsusən də İslam partiyalarının yayılmasına və dini səpkidə fəaliyyətinə yol açır. Bu isə nəticədə siyasi İslamın güclənməsinə və həmin partiyaların ölkənin başlıca konsepsiyasına zidd olaraq şəriət əsaslı dövlət yaratmaq ideyasını geniş şəkildə təbliğ etmələrinə, İndoneziya siyasi sistemində ciddi neqativ tendensiyalar yaranmasına zəmin yaradır.

Hazırladı: **Tamerlan Əhmədli**
DQİDK-nın Təhlil və proqnozlaşdırma şöbəsinin məsləhətçisi

# İSLAM VƏ MİLLİ KİMLİK

İslam dini insanları həmişə saflığa, təmizliyə, ülviliyə dəvət edir. Onun milli kimlik, millətçilik anlayışı ilə münasibətlərinin araşdırılması din alimlərindən çox, siyasi islamşünasları maraqlandırır. Bu mütəxəssislərin əksəriyyətinin vəzifəsi İslam və milli kimlik problemlərini, bir qayda olaraq, dinimizin fundamental nəzəri prinsiplərində araşdırmaq deyil, Məhəmməd peyğəmbərin (s) dövründən günümüzədək baş verən tarixi faktların fonunda təhlil etməkdir.

Diqqət ilk növbədə ona yönəldilir ki, təktanrıçılıq inancına son tarixi möhürünü vuran İslam VII əsrdə pərakəndə ərəb tayfalarını vahid dövlətdə birləşdirmiş və onların ümmət halında birgəyaşayışını təmin etmişdir. Həqiqətən də, insanların dini mənsubiyyətinin əsas götürüldüyü tarixi dövrlərdə müxtəlif etnik qruplar və xalqlar vahid sərhədlər çərçivəsində – öncə ərəblərin, sonra türklərin qurduğu imperiyalarda yaşamış və çoxçalarlı, zəngin İslam mədəniyyətini ərsəyə gətirmişlər.

Siyasi islamşünaslığın istinad etdiyi başqa bir mənbə İslam ideoloqlarının baxışlarıdır. Onlar İslamın tarixən birləşdirici rolunu rəhbər tutaraq milliliyi, millətçiliyi dinin əsaslarını sarsıdan, perspektivinə xələl gətirən vasitə saymışlar. Millətçilik əleyhinə baxışların sistemli şəkildə formalaşması XIX əsrin sonlarına – panislamist hərəkatının və ideologiyanın təşəkkülü dövrünə təsadüf edir. Bu da əsasən Cəmaləddin Əfqaninin adı ilə sıx bağlıdır. O, müsəlman xalqlarının Qərbin müstəmləkə asılılığından xilası naminə dini şüarlardan istifadəni vacib sayır və bu mübarizə uğrunda can verə biləcək yeganə ideologiya kimi İslamı görürdü.

C.Əfqani millətçilik düşüncəsini tənqid edərək milli həmrəylikdən çox, dini həmrəyliyi üstün tuturdu: "Müsəlmanlar öz dinlərindən özgə bir millət tanımırlar". Əslində, belə görüşlər dövrün əhval-ruhiyyəsilə səsləşdiyindən və əsasən də müəyyən tarixi irsə söykəndiyindən populyarlaşa bilirdi.

XIX əsrdə milli azadlıq hərəkatının uğurları siyasiləşmiş İslamın milliliyə münasibətinə də bəlli ölçüdə düzəlişlər gətirdi. Məhəmməd İqbal yazırdı: "Tanrı bizlərə o həqiqəti öyrədir ki, İslam millətçilik, yaxud imperiyaçılıq deyil, süni sərhədləri və milli-irqi fərqləri yalnız qarşılıqlı ünsiyyət rahatlığı naminə tanıyan millətlər birliyinə dair dünyagörüşüdür".

Unutmaq olmaz ki, milli hərəkatlar tarixən mütərəqqi səciyyə daşıyır və dünyada gedən demokratik proseslərin tərkib hissəsidir.

Milliliyin ümumbəşəri dəyərlərlə dialektikasına yüzlərlə elmi araşdırma həsr edilib. İndi o da etiraf oluna bilər ki, ümumbəşəri dəyərlərdən kənarda gerçək din yoxdur və ola da bilməz. Əslində, dinlə milliliyin dialektikasına bəşəriliklə milliliyin əlaqəsi müstəvisində də qiymət vermək mümkündür. Başqa dinlərdən fərqli olaraq, İslamın imkanları bu baxımdan daha genişdir. İslam deyəndə məhdud zaman qəliblərinə salınmış, siyasiləşmiş din nəzərdə tutulmur.

İnsan hüquq və azadlıqlarını ən ali səviyyədə təsdiq edən Quran milli hüquqlar daxil olmaqla, bütün təbii haqlarına müqəddəslik qazandırır. Müqəddəs Kitabımız insanlara Allahı dərk naminə bu haqlara sahib çıxmağı da öyrədir. Bunun fəlsəfəsi qısaca belə açıqlana bilər ki, milli azadlıq da daxil olmaqla, insan azadlıqları bütövlükdə və ayrılıqda dağıdıcı deyil, qurucu mahiyyətdə olduğundan, Tanrı ona təşviq edir.

Bəşəriyyəti bir kişidən və bir qadından yaratmış Allah buyurur: **"...Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır..."** (Hücurat,13). İlk oxunuşda ayənin başlıca hikmət milli-irqi ayrı-seçkiliyin yolverilməzliyi ilə əlaqədardır. Olduqca ibrətamizdir ki, burada Tanrıya bağlılıq mənəviyyat göstəricisi, millətə bağlılıq isə həyatın zərurət nişanələrindən biri kimi vurğulanır. Bu ayə insanlar arasında yaxınlaşmanın bir istiqamətinin də millətlərarası əlaqələr müstəvisindən keçməsi zərurətini irəli sürür və milli haqların gerçəkləşməsini vacib edir.

Milli özünüdərk prosesində dilin oynadığı rolun önəmi müzakirə predmeti ola bilməz. İslam və milli kimlik münasibətlərinə bir qədər də aydınlıq gətirmək üçün Quranın milli dillərə qayğısını da qeyd etmək yerinə düşərdi. Məsələn, "Rum" surəsinin 22-ci ayəsində deyilir: **"Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir..."**. Bu bir həqiqətdir ki, bəzi "millətçilərin" iddia etdiyi kimi, İslam təkcə ərəblərin dini deyil. Quranın ərəbcə nazil olması milli, irqi, etnik mənsubiyyətindən asılı olmayaraq hamını eyni səviyyədə təktanrıçılıq inancına çəkməkdən ibarətdir. Quran göstərir ki, peyğəmbərlərin təktanrıçılığa dəvəti Adəmdən bu yana müxtəlif xalqların tarixində önəmli rol oynayıb. Quran ayələrindən göründüyü kimi, milli sərhədlər və fərdlər silinmir, əksinə, ilahi harmoniyanın vacib cizgiləri və Allah dərkində yardımçı dəlillər olaraq təsdiqlənir.

Dini ayinlərin icrasında, dualarda öz dilimizdən istifadəni də vacib saymalıyıq. Çünki İslam Allaha korkoranə inanmaqdan daha çox, Onunla ünsiyyətə can atmağa təşviq edir. Bu ünsiyyətdə hər hansı qeyri-səmimiliyə, yaxud da anlaşmazlığa yer ola bilməz.

Tarixə nəzər salanda görürük ki, İslamın ərəblər tərəfindən yayılması bir çox münaqişələrə səbəb olub. Aydındır ki, ərəblərin türk torpaqlarına yürüşlərini türklər müqavimətsiz qarşılamayıblar. Bu müqavimət İslama qarşı deyil, ərəb işğalına qarşı olub. Bununla bağlı uetərinsə tarixi araşdırmalar da aparılıb. Onu da qeyd edək ki, türklərin İslamı qəbul etməsi kütləvi xaraktek daşıyıb. Xüsusən, Abbasilər dövründə – əl-Məmunun və əl-Mötəsimin hakimiyyəti illərində türklər İslam ordularının dayaqlarını təşkil etməuə başlayıb, tədricən dinin əsl sahiblərinə çevriliblər.

Əcdadlarımızın İslama mehriban münasibətinin kökündə duran əsas səbəb ondan ibarət idi ki, İslamla ilk tanışlıqlarında psixoloji əngəllərlə üzləşməmişdilər. Türklərin əski inanclarındakı Göy Tanrı təktanrıçılıqla elə bir ziddiyət təşkil etmir. Bu inancın əsasında ruhun ölməzliyi və axirət həuatı dayanır. Həmçinin İslamın gətirdiyi əxlaq və ədalət anlayışları türklərin əxlaq və davranış prinsiplərinə uyğun gəlirdi.

Son yüzillikdə baş verən hadisələri müsəlman xalqlarının təfəkküründə ümmətçilikdən millətçiliyə keçid kimi dəyərləndirirlər. Belə dəyərləndirmə milli oyanış, milli özünüdərk prosesləri fonunda irəli sürülür.

"Ümmət" sözü tək və cəm halında Quranda 60-a yaxın yerdə keçir. Burada qarışqalar da, uçan quşlar da ümmət kimi təqdim edilir. "Nəhl" surəsində buyurulur: "İbrahim özlüyündə bir ümmət idi"... Yəni İbrahim peyğəmbər (ə) təktanrıçılığın təsdiqi yolunda verdiyi mücadilə qarşısında bir kütlə, bir ümmət kimi dəyərləndirilir. Təbii ki, Məhəmməd peyğəmbərin (s) ətrafında toplaşan, İslama tapınanlar da ümmət idi. Ancaq Quran işığında Həzrət Peyğəmbərin (s) ümmətini daha geniş anlayışda dərk etmək lazım gəlir. Buraya təksə müsəlmalar daxil deyil. Çünki Peyğəmbər (s) öz missiyasını bütün insanlara təbliğ edirdi. "Ənbiya" surəsinin 107-ci ayəsində Həzrət Peyğəmbərin (s) bütün insanlığa ümmət payı olaraq göndərildiyi vurgulanır.

Zaman-zaman dar mənada anlaşılan "millətə keçid" məsələsinə gəlincə, bu keçid dinimizin saflaşmasına istiqamətlənir. Milli özünüdərk prossesi təktanrıçılığı, ucalığa qayıdış yollarındakı əngəlləri ram edə-edə dinimizin böyük mənada xidmətində dura bilir.

Beləliklə, İslam və milliliyin bayrağımıza hopmuş mübarək sintezinin şüurlarda vücuda gəlməsinə böyük ehtiuas var. Bu, xalqımızın mənəvi yüksəlişinin, tərəqqisinin və dünyada özünütəsdiqinin daha sürətlənməsinə gözəl prespekivlər aça bilər.

**Kamil BAĞIROV,**
DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin
baş məsləhətçisi

## "Əl-Cəzirə" Azərbaycandakı dini tolerantlıqdan bəhs edib


News Middle East Documentaries Shows Investigati

NEWS / RELIGION

**Islam's gradual resurgence in post-Soviet Azerbaijan**

by Ayseba Umutlu

8 Jan 2018

Fargana Gasimova's memories of Islam during the Soviet period are of a faith that had to be kept hidden.

Her grandparents would pray and fast in secret, careful to disguise any hint of their religion from the prying surveillance apparatus of the Soviet authorities.

"We were not allowed to pray or wear the hijab (headscarf) in Azerbaijan during the USSR," she tells Al Jazeera, using the acronym for the Union of Soviet Socialist Republics, or the Soviet Union.

MORE ON AZERBAIJAN

Alfred Nobel's lesser-kn... Azerbaijan connection
last month

Azerbaijan accused of $... money-laundering schem...
4 months ago

Abducted Azeri journalis... wife rejects Georgian off...
7 months ago

Nagorno-Karabakh: Azer... hits Armenia defence un...
9 months ago

"Əl-Cəzirə" telekanalının ingilis dilindəki internet saytında Azərbaycanla bağlı növbəti məqalə yayılıb.

Məqalədə Azərbaycandakı dini tolerantlıqdan, burada İslam dininin yayılması tarixindən, ölkəmizin İslam mədəniyyətinin inkişafına töhfələrindən bəhs edilir.

Həmçinin məqalədə dünyəvi respublika olan Azərbaycanda əhalinin 96 faizini müsəlmanların təşkil etdiyi diqqətə çatdırılır. Azərbaycanda digər sahələrdə olduğu kimi, dini sahədə də azadlığın təmin edildiyi, ölkə Konstitusiyasına əsasən irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən və s. asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabər olduğu vurğulanır.

Azərbaycanda milli-mənəvi dəyərlərə, dinə dövlət qayğısı barədə söhbət açılan məqalədə sovet dövründə ölkəmizdə cəmi 18 məscidin olduğu, müstəqilliyin bərpasından sonra isə məscidlərin sayının 2 mini keçdiyi qeyd edilir.

## "Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə qurulub"

Ukraynanın tanınmış UNİAN informasiya agentliyində Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulmasından bəhs edən, Azərbaycan dövlətinin yürütdüyü din siyasətinin müsbət dəyərləndirildiyi məqalə yayılıb.

Məqalədə Azərbaycanda dini qurumların kütləvi şəkildə dövlət qeydiyyatına alındığı qeyd olunur. Bildirilir ki, Azərbaycanda 800-ə yaxın dini icma Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən qeydiyyata alınıb. Konfessional baxımdan onların 765-i İslam, 28-i isə qeyri- islam (xristian – 17; yəhudi – 8; krişna – 1; bəhai – 2) təmayüllüdür.

Məqalədə qeyd olunur ki, Azərbaycanda 10 dövlət təhsil müəssisəsi fəaliyyət göstərir. Ölkə ərazisində 2 mindən çox məscid mövcuddur, onlardan 136-sı Bakı şəhərində yerləşir. Azərbaycanda 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir.

# ELAN

Quba rayon Digah kənd dini icmasının (355 nömrəli, 15.02.2000-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 16 yanvar 2018-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

***

Quba rayon Digah kənd dini icmasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 355 nömrəli, 15.02.2000-ci il tarixli şəhadətnamə, çıxarış, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

***

Quba rayon Hacı Hüseyinli kənd dini icmasının (107 nömrəli, 16.02.1996-cı il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 16 yanvar 2018-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

***

Quba rayon Hacı Hüseyinli kənd dini icmasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 107 nömrəli, 16.02.1996-cı il tarixli şəhadətnamə, çıxarış, nizamnamə, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

***

Siyəzən rayonu "Cümə" məscidi dini icmasının (137 nömrəli, 26.12.1996-cı il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 09 yanvar 2018-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

***

Siyəzən rayonu "Cümə" məscidi dini icmasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 137 nömrəli, 26.12.1996-cı il tarixli nizamnamə, şəhadətnamə, çıxarış itdiyi üçün etibarsız sayılır.

***

Xaçmaz rayonu Xudat şəhəri "Məhəmməd yarağı" məscidi dini icmasının (146 nömrəli, 17.03.1997-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 18 yanvar 2018-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

***

Xaçmaz rayonu Xudat şəhəri "Məhəmməd yarağı" məscidi dini icmasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 146 nömrəli, 17.03.1997-ci il tarixli şəhadətnamə, çıxarış, nizamnamə, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

***

Qusar rayonu Kirik kəndində fəaliyyət göstərən müsəlman dini icmasının (185 nömrəli, 17.10.1997-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 22 yanvar 2018-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

***

Qusar rayonu Kirik kəndində fəaliyyət göstərən müsəlman dini icmasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 185 nömrəli, 17.10.1997-ci il tarixli şəhadətnamə, çıxarış, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

***

Qusar rayonu Yuxarı məhəllə müsəlman dini icmasının (134 nömrəli, 26.12.1996-cı il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 22 yanvar 2018-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

***

Qusar rayonu Yuxarı məhəllə müsəlman dini icmasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 134 nömrəli, 26.12.1996-cı il tarixli şəhadətnamə, çıxarış, nizamnamə, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

***

Qusar rayon dini icmasının (60 nömrəli, 28.10.1994-cü il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 22 yanvar 2018-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

***

Qusar rayon dini icmasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 60 nömrəli, 28.10.1994-cü il tarixli şəhadətnamə, çıxarış, nizamnamə, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

***

Qusar rayonu Həsənqala kənd dini icmasının (278 nömrəli, 11.05.1999-cu il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 22 yanvar 2018-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

***

Qusar rayonu Həsənqala kənd dini icmasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 278 nömrəli, 11.05.1999-cu il tarixli şəhadətnamə, çıxarış, nizamnamə, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

***

Siyəzən rayonu Zarat kəndinin müsəlman icmasının (125 nömrəli, 01.12.1996-cı il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 09 yanvar 2018-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

***

Siyəzən rayonu Zarat kəndinin müsəlman icmasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 125 nömrəli, 01.12.1996-cı il tarixli şəhadətnamə, çıxarış itdiyi üçün etibarsız sayılır.

***

Quba rayonu Gədik kənd dini icmasının (90 nömrəli, 02 aprel 2002-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 16 yanvar 2018-ci il tarixli ümumi yığıncağında 1 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

***

Quba rayonu Gədik kənd dini icmasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən verilmiş 90 nömrəli, 02 aprel 2002-ci il tarixli şəhadətnamə, çıxarış, nizamnamə, möhür və ştamp itdiyi üçün etibarsız sayılır.

***

Lənkəran rayonu Yuxarı Nüvədi kənd icması (10.01.2005-ci il tarixli, 304 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 29 yanvar 2018-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

***

Lənkəran rayonu Türkəncil kənd dini icması (10.01.2005-ci il tarixli, 305 nömrəli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərin 29 yanvar 2018-ci il tarixli ümumi yığıncağında 02 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

***

23.04.2003-cü il tarixdə dövlət qeydiyyatından keçmiş Ağsu rayonu Gəgəli kənd dini icmasına məxsus 173 saylı şəhadətnamə, nizamnamə və möhür itdiyi üçün etibarsız sayılır.

***

Şamaxı rayonu Quşçu kənd dini icmasının (1305A1-328 nömrəli, 07.07.2005-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 24.01.2018-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

***

Şamaxı rayonu İkinci Cabanı kənd dini icmasının (288 nömrəli, 01.10.2004-cü il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 25.01.2018-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

***

İsmayıllı rayonu Ruşan kənd dini icmasının (248 nömrəli, 24.03.2004-cü il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 23.01.2018-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

***

İsmayıllı rayonu Topçu kəndində fəaliyyət göstərən kənd məscidi dindarlarının dini icmasının (331 nömrəli, 28.09.1999-cu il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 23.01.2018-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv edilməsi barədə qərar qəbul olunmuşdur.

***

İsmayıllı rayonu Sumağallı kəndi "Cümə" məscidi dini icmasının (181 nömrəli, 15.08.1997-ci il tarixli şəhadətnamə ilə dövlət qeydiyyatına alınmışdır) təsisçilərinin 24.01.2018-ci il tarixli ümumi yığıncağında 01 nömrəli protokol ilə həmin dini icmanın ləğv olunması barədə qərar qəbul edilmişdir.

## Dəyişiklik

**Lənkəran rayonu Osakücə kənd məscidi dini icması**

Qeydiyyat tarixi: **01 iyul 2011-ci il**
Qeydiyyat №-si: **100111A1 – 542-10**

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən İsmayılov İsa Salman oğlu, Gözəlov Ağali Oruc oğlu dini icmasının təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar və Rzayev Ramik Ramiz oğlu, Rzayev Fuad Fayaz oğlu, Dadaşlı Səadət Fuad oğlu, Gözəlov Allayar Hacıağa oğlu, Həbibov Aqşin Canbala oğlu, Həsənov Mirağa Mirzağa oğlu dini icmasının təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi: 05 yanvar 2018-ci il**

CƏMİYYƏT və DİN
№ 01 (318) / YANVAR 2018-ci il

# Papa nüvə müharibəsindən qorxduğunu etiraf edib




Roma Papası Fransisk özünün nüvə müharibəsi qorxusundan danışıb və dünyanı nüvə tərksilahına çağırıb.

Bu barədə İtaliyanın "La Repubblica" qəzeti məlumat yayıb. "Mən həqiqətən qorxuram. Biz artıq son həddəyik. Müharibənin başlaması üçün təsadüfi hadisə də kifayətdir. Bundan sonra hadisələr sürətlə cərəyan edə bilər. Silahları məhv etmək və bütün səyləri nüvə tərksilahına yönəltmək lazımdır", - deyə Roma Papası bildirib.

Fransisk bundan öncə, Çiliyə gedərkən təyyarənin göyərtəsində jurnalistlərə 1945-ci ildə Yaponiyanın Naqasaki şəhərində çəkilən fotoşəkli bağışlayıb. Pontifik bu fotoşəkildə nüvə zərbəsindən sonra ölən qardaşını krematoriyə aparan oğlan uşağının təsvir olunduğunu izah edib. Papa bu fotonu görən zaman çox sarsıldığını və onu "Müharibənin meyvəsi" adlandırdığını deyib.

## ÖZBƏKİSTANDA İSLAM AKADEMİYASI YARADILIB

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Fərmanı ilə Daşkənd şəhərində İslam Akademiyası yaradılıb.

Özbəkistanın müftisi Usmanxon Alimov jurnalistlərə bildirib ki, akademiyada tədris magistratura, baza doktoranturası və doktorantura üzrə olacaq.

Burada magistrlər "Quranşünaslıq", "Fiqh elmi", "Hədisşünaslıq", "Kəlam elmi" üzrə hazırlanacaq. Onlara Özbəkistanın böyük din alimləri İmam Buxari, İmam Tirmizi, Əbdülxaliq Qijduvani, Bahaəddin Nəqşibəndi və digərlərinin əsərləri tədris olunacaq.

Akademiyada magistr və doktorluq işlərinin müdafiə edilməsi, islamşünaslıq üzrə magistr, fəlsəfə diktoru, islamşünaslıq doktoru elmi dərəcələri verilməsi üçün Xüsusi Elmi Şura da fəaliyyət göstərəcək.

Akademiya dünyanın bütün müsəlman ölkələrindən, Rusiyadan və digər ölkələrdən tələbələr qəbul edəcək.

## BU MADDƏ XƏRÇƏNG ŞİŞLƏRİNİ 100 DƏFƏ ARTIRIR

Kaliforniya Universitetinin (ABŞ) alimləri xolesterinin insan orqanizmində xərçəng şişlərinin böyüməsinə təsir etdiyini aşkarlayıblar.

Alimlər siçanlar üzərində aparılmış eksperimentlər zamanı aşkar ediblər ki, xolesterinin səviyyəsinin artması bağırsaqda xərçəng şişinin böyüməsini 100 dəfə sürətləndirir. Onların fikrincə, bu kəşf yoğun bağırsaq xərçənginin müalicəsində kömək edəcək.

Lakin alimlər qeyd edir ki, xolesterindən tam imtina etmək düzgün deyil. Xolesterin orqanizm üçün həyati vacibdir. Xolesterin D vitamini, hormonların sintezində iştirak edir, hüceyrələrin membranlarına daxildir, həzmə kömək edir.

Alimlər qidalanmada "pis" xolesterinin səviyyəsini azaltmağa, "yaxşı" xolesterinin səviyyəsini isə əksinə artırmağa çağırır. Bunun üçün qidalanmada qırmızı və emal olunmuş ətin (kolbasa, sosis və s.) miqdarını azaltmaq, balıq və dəniz məhsulları, meyvə-tərəvəz, yarmalar, qoz-fındıq, paxlalar, zeytun yağı kimi məhsulların miqdarını artırmaq lazımdır.

**Yadigar söz**

**Corc Bernard Şou**
*Böyük Britaniya yazıçısı*

**Təbiətin boşluqlara dözümü yoxdur, haradakı insanlar həqiqətləri bilmirlər, onlar həmin boşluğu mövhumatla doldururlar.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (Fevral - 2018)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:28 | 07:50 | 12:54 | 16:17 | 18:13 | 19:16 |
| 2 | 06:27 | 07:49 | 12:54 | 16:18 | 18:14 | 19:17 |
| 3 | 06:26 | 07:48 | 12:54 | 16:20 | 18:15 | 19:18 |
| 4 | 06:25 | 07:47 | 12:55 | 16:21 | 18:17 | 19:19 |
| 5 | 06:24 | 07:46 | 12:55 | 16:22 | 18:18 | 19:20 |
| 6 | 06:23 | 07:45 | 12:55 | 16:23 | 18:19 | 19:21 |
| 7 | 06:22 | 07:44 | 12:55 | 16:24 | 18:20 | 19:22 |
| 8 | 06:21 | 07:43 | 12:55 | 16:25 | 18:21 | 19:23 |
| 9 | 06:20 | 07:42 | 12:55 | 16:26 | 18:23 | 19:24 |
| 10 | 06:19 | 07:41 | 12:55 | 16:28 | 18:24 | 19:25 |
| 11 | 06:18 | 07:40 | 12:55 | 16:29 | 18:25 | 19:26 |
| 12 | 06:17 | 07:38 | 12:55 | 16:30 | 18:26 | 19:28 |
| 13 | 06:16 | 07:37 | 12:55 | 16:31 | 18:27 | 19:29 |
| 14 | 06:15 | 07:36 | 12:55 | 16:32 | 18:28 | 19:30 |
| 15 | 06:14 | 07:35 | 12:55 | 16:33 | 18:30 | 19:31 |
| 16 | 06:13 | 07:33 | 12:55 | 16:34 | 18:31 | 19:32 |
| 17 | 06:11 | 07:32 | 12:55 | 16:35 | 18:32 | 19:33 |
| 18 | 06:10 | 07:31 | 12:55 | 16:37 | 18:33 | 19:34 |
| 19 | 06:09 | 07:29 | 12:55 | 16:38 | 18:34 | 19:35 |
| 20 | 06:08 | 07:28 | 12:55 | 16:39 | 18:35 | 19:36 |
| 21 | 06:06 | 07:27 | 12:54 | 16:40 | 18:37 | 19:37 |
| 22 | 06:05 | 07:25 | 12:54 | 16:41 | 18:38 | 19:38 |
| 23 | 06:04 | 07:24 | 12:54 | 16:42 | 18:39 | 19:40 |
| 24 | 06:02 | 07:22 | 12:54 | 16:43 | 18:40 | 19:41 |
| 25 | 06:01 | 07:21 | 12:54 | 16:44 | 18:41 | 19:42 |
| 26 | 06:00 | 07:20 | 12:54 | 16:45 | 18:42 | 19:43 |
| 27 | 05:58 | 07:18 | 12:54 | 16:46 | 18:43 | 19:44 |
| 28 | 05:57 | 07:17 | 12:53 | 16:47 | 18:44 | 19:45 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## İSTANBULDAKI FƏNƏR RUM PATRİARXLIĞI "ZEYTUN BUDAĞI" ƏMƏLİYYATINA GÖRƏ TÜRKİYƏNİ DƏSTƏKLƏYİR



İstanbuldakı Fənər Rum Patriarxlığı Türkiyə Silahli Qüvvələrinin Suriya ərazisində həyata keçirdiyi "Zeytun budağı" adlı antiterror əməliyyatını dəstəkləyir.

Fənər Rum Patriarxı Varfolomey bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana məktub ünvanlayıb. Məktubda Varfolomey əminliklə ifadə edir ki, bu əməliyyat illərdən bəri terrordan əziyyət çəkən Türkiyə xalqına, eləcə də qonşu Suriyaya əmin-amanlıq gətirəcək. Məktubda qeyd olunur ki, Patriarxlıqda əməliyyatda iştirak edən hərbçilərin sağlığı üçün dualar oxunur, eləcə də ölkənin tezliklə xarici və daxili təhdidlərdən xilas olması arzu edilir.

## MİSİRDƏ QAYANIN İÇİNDƏ YONULMUŞ QƏDİM SƏRDABƏ AŞKARLANIB

Misirin şimalındakı əl-Alameyn şəhəri ərazisində qayanın içində yunanların hakimiyyətdə olduğu dövrə aid qədim sərdabə aşkarlanıb. Arxeoloqlar qayanın içində yonulmuş sərdabəni I əsrə və ellinizm dövrünə aid edirlər. Sərdabənin cənub divarı yunan mifologiyasının məşhur simvolu – bolluq buynuzu ilə bəzədilib. Sərdabəyə girişin sağ tərəfində daha bir dəfn yeri var. Alimlərin fikrincə, bu yer sərdabənin özündən təqribən yüz il sonra yaradılıb və əslində, onun ərazisini genişləndirib.



Arxeoloqlar sərdabədə müxtəlif artefaktlar, o cümlədən qədim sikkələrdən ibarət bütöv bir kolleksiya, iki lampa, keramik qablar aşkar ediblər.

Baş redaktor Səyyad ARAN

Redaksiya şurası: Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV *(Məsul katib)*

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 365

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894